# ÇIXARIŞLAR

- Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 20 noyabr 1990-cı il tarixli sessiyasının stenoqramından çıxarış (20 noyabr, 1990-cı il)....2
- "Şit" ictimai təşkilatının müstəqil təhqiqatının nəticələri ....5
- Azərbaycan KP MK aparatının ilk partiya təşkilatının 22 yanvar 1990-cı il tarixli yığıncağının 3 nömrəli protokolundan çıxarış ....10
- 24-25 yanvar 1990-cı il tarixində keçirilən Azərbaycan KP MK plenumunun stenoqramından çıxarışlar...18
- Azərbaycan KP MK plenumunun 31 mart 1990-cı il tarixli iclasının 19 nömrəli protokolundan çıxarış.....21
- Azərbaycan KP MK-nın 2 iyun 1990-cı il tarixli plenumundan çıxarış ....26

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 20 noyabr 1990-cı il tarixli sessiyasının stenoqramından çıxarış
## (20 noyabr 1990-cı il)

**Xalq deputatı Heydər Əliyev:** Mən istəyirəm ki, bu məsələ (1990-cı il 19-20 yanvar Bakı hadisələri - **tərtibçi)** barəsində öz fikrimi deyim. Bu məsələnin meydana gəlməsi tarixi böyükdür. Aydındır ki, 1988-ci ildən Bakıda milli hərəkat başlayıb. Və bu milli hərəkatın boğulmasına bir neçə dəfə — həm Azərbaycan KP rəhbərliyi, həm də ümumittifaq rəhbərliyi cəhd edibdir. Bir qrup adam həbs olunub, cəzalar çəkib, məhrumiyyətə uğrayıblar və burada qarşılıqlı mübarizə gedib. Ancaq bunlara baxmayaraq ümumxalq hərəkatı inkişaf edib, o daha da güclənib və Azərbaycanda bu xalq hərəkatının inkişaf edib güclənməsinin ən böyük təkanvericisi də Dağlıq Qarabağ Muxtar Vilayətində yaranmış vəziyyət, onun ətrafında olan məsələlər və ümumiyyətlə, bu məsələnin yaranması ilə əlaqədar bizim respublikaya Mərkəz tərəfindən göstərilən ədalətsiz münasibətdir.

Bunlar xalq hərəkatına təkan verib və onu inkişaf etdiribdir. Təəssüf ki, mən belə fikirdəyəm, birinci növbədə respublikanın rəhbərliyi, Azərbaycan KP-nin rəhbərliyi bu məsələni düzgün araşdıra bilməyib, bunlara düzgün qiymət verməyib, öz şəxsi mövqelərini müdafiə etmək üçün cürbəcür qeyri-qanuni, qeyri-hüquqi üsullara əl atıb və beləliklə, xalq hərəkatına zərbə vurmağa çalışıbdır.

Bu xalq hərəkatı ilə əgər əvvəldən dil tapılsaydı, söhbət aparılsaydı, rəhbərlik xalqla dialoqa girə bilsəydi, şübhəsiz ki, çox məsələlərin qarşısı alınardı və 1989-cu ilin dekabrında və 1990-cı ilin yanvarında Bakıda və ümumiyyətlə Azərbaycanda olan faciəvi hallar baş verməzdi. Bunlar olmayıb. Və burada da Azərbaycan KP rəhbərləri ümumittifaq siyasi rəhbərləri ilə bir olublar, onlarla birgə hərəkət ediblər, onlarla birlikdə xalq hərəkatını boğmaq, Azərbaycanda diktatura üsuli-idarəsini möhkəmləndirmək niyyətində olublar.

İkinci tərəfdən mən hesab edirəm ki, bir tərəfdən demokratiyanın inkişafı barədə car çəkən ümumittifaq siyasi rəhbərlərinin və onlarla birlikdə Azərbaycan Kommunist Partiyasının rəhbərlərinin ikiüzlülük edərək, xalqa xəyanət edərək, xalq hərəkatını boğmaqla, tutduqları vəzifədə qalmaları cinayətdir. Bundan danışmaq lazımdır. Bunun tarixini təhlil etməyə tarixçilərimiz də, böyük adamlarımız da var. Şübhəsiz ki, Azərbaycan xalqı öz tarixini çox dərindən təhlil etməlidir. Bütün keçən dövrlərə baxıb, hamısına düzgün qiymət verməlidir.

Ancaq indi söhbət ondan gedir ki, münasibət nədir? Münasibət də ondan ibarətdir ki, 19-20 yanvar 1990-cı il hadisələri, Bakıda baş vermiş hadisələr faciəvi hadisədir və mən belə hesab edirəm ki, Azərbaycanın 1920-ci ildən sonrakı tarixində belə faciəvi hadisə olmamışdır. Bu, xalqın böyük hiddətini doğurmuşdur. Xalq matəm vəziyyətinə gəlib çıxmışdır. İndi on bir aydır ki, xalq matəm içindədir. Bunu açıq-aydın demək lazımdır.

Nə üçün bu məsələ meydana gəlib - mən bunu dedim. Bunun qarşısı alına bilərdimi? Şübhəsiz ki, alma bilərdi. Əgər respublikanın siyasi rəhbərləri xalqla əlaqəyə girsəydilər, xalqla bir olsaydılar, xalqla dil tapsaydılar və xalqın dediyi sözləri eşitsəydilər və onlarla hesablaşsaydılar. Ancaq bunlar olmayıb. Respublikanın rəhbərləri Moskvanın, Qorbaçovun müdafiəsinə arxayın olaraq xalqı boğmağa, əzməyə çalışıblar. Və buna da nail olublar.

Mən hesab edirəm ki, bunların qarşısı alına bilərdi. Bu faciə baş verməyə bilərdi. Xalqımız bu günə düşməyə bilərdi.

Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyllərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir.

Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində — heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır. Bunu da edib Sovet ordusu. Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi, ancaq görün bu hərbi əməliyyata bunlar nə qədər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olubdur ki, marşal Yazov gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edibdir.

Demək, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir. Və mən şəxsən bu hadisələri eşidərkən, yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gedib öz fikrimi söyləmişəm, bütün bu aksiyanı, bu əməliyyatı pisləmişəm. O vaxt demişəm, indi də təkrar edirəm: bu, xalqın əleyhinə olan əməliyyatdır, demokratiyanın əleyhinə olan əməliyyatdır, hüquq normalarının əleyhinə olan əməliyyatdır, mürtəce bir əməliyyatdır. Mən bu fikirdəyəm və buna belə də qiymət vermək lazımdır.

Azərbaycan xalqı üçgünlük matəm elan etmişdi. Şəhidlər Azərbaycan paytaxtının görkəmli yerində dəfn olunmuşlar. Bəs qatillər kimdir? Nə üçün indiyə qədər bu qatillər meydana çıxmayıbdır? Onların heç biri həbs olunmayıb, heç biri xalqa göstərilməyib. Bu necə olur? Əgər biz şəhidləri görürüksə, onların qəbirlərinin üstünə gündə minlərlə adam gedirsə, bəs bunların qatilləri kimlərdir? Bunlar nə üçün indiyə qədər kənarda qalıblar? Bu, çox təəccüblü məsələdir. Bu, xalqı incidir, narahat edir, hər bir adamda bu sualı vermək hüququ yaradır. Mən şəxsən bu sualı verirəm, ancaq cavab ala bilmirəm.

Bir sözlə, bu hadisə olub. Azərbaycan xalqının başına bu bəla gəlib. Faciə baş verib. Bu, məsələnin bir tərəfidir. İkinci tərəfi, bəs bu məsələlərə nə üçün indiyədək siyasi qiymət verilməyib? Bu məsələ gündəliyə salınarkən mən belə başa düşdüm ki, deputatlar buna siyasi qiymət verəcəklər.

Məlumdur ki, yanvarın 22-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyası olmuşdur. O sessiyada çox ciddi söhbətlər getmiş və bu hərbi əməliyyat, bu təcavüz pislənmişdir. Ancaq o sessiyanın işi kəsilmiş, indiyə qədər bərpa olmamışdır. Ondan sonra Ali Sovetin bir neçə dəfə sessiyaları keçib, ancaq bu məsələ tamamilə kənarda qalıb. Elə bil ki, Azərbaycan xalqının başına heç belə bəla gəlməyib. Sonra komissiya yaranıb. Mən mətbuatda oxumuşdum ki, yanvar hadisələrinin başvermə səbəblərini və günahkarlarını təyin etmək üçün böyük bir deputat komissiyası yaranıb və onun da başında SSRİ xalq deputatı, akademik Abbasov durur. Ancaq indiyə qədər bu komissiya öz fikrini bildirməyib, bu komissiyanın işi müzakirə olunmayıb, xalq bu barədə bir şey bilmir. Eyni zamanda, Azərbaycan KP MK da, mən mətbuatdan bildim ki, bu barədə komissiya yaradıbdır. Eşitdiyimə

görə, MK katibi Daşdəmirov o komissiyanın sədridir. Ancaq bu komissiyanın işindən də xəbər yoxdur. Bax, iş burasındadır, yoldaşlar. Olan olub, başımıza gələn bəla gəlib, millət əzilib, millətə qarşı təcavüz olub, ancaq indiyə qədər Azərbaycan xalqının həyatında baş vermiş bu böyük faciəvi hadisəyə siyasi qiymət verilməyib və bunun günahkarları meydana çıxarılmayıbdır. Doğurdan da, faciəvidir.

Dünən buraya bir qrup artist gəlmişdi. Afaq Bəşirqızı orada çıxış edirdi. Bizim gənc aktrisalardandır. O özü deyirdi ki, bu hadisənin şahidi olubdur. O, Tbilisi prospektində yaşayır. Deyir, mən gecə saat 12-dən sonra çıxdım balkona, gördüm tanklar adamları necə əzir. Güllələri atırdılar evlərə. Bizim qonşunun balkonuna neçə güllə dəyib. Dinc şəraitdə yaşayan azərbaycanlılara nə üçün belə xəyanət olub? Bunların hamısının indi üstü örtülüb-basdırılıb. Heç kəs bu haqda danışmaq istəmir, mən demək istəyirəm ki, rəsmi dairələrdən. Elə bil ki, Azərbaycan xalqının başına belə bir iş gəlməyibdir.

Ona görə mən belə fikirdəyəm ki, indi oxunan bəyanatın üzərində ciddi surətdə işləmək lazımdır. Onu genişləndirmək lazımdır. Çıxışlarla əlaqədar əlavələr etmək lazımdır. Burada əsas tələb ondan ibarətdir ki, biz özümüz bu hadisələrə qiymət verməli, Azərbaycan xalqına qarşı olan bu təcavüz əməliyyatmı pisləməliyik. Və eyni zamanda, Azərbaycan Respublikasının Ali hakimiyyət orqanından tələb etməliyik ki, qısa müddətdə, yaxud heç olmasa növbəti sessiyada bu məsələ müzakirə olunsun. Yanvar hadisələrinə siyasi qiymət verilsin və bu hadisənin günahkarları — kim olursa-olsun, Qorbaçovdan tutmuş aşağı, respublika rəhbərlərinə kimi, keçmiş, ya indiki - fərqi yoxdur, bu xalqdır, xalqa qarşı cinayətdir, — cəzalandırılsın. Bir nəfəri öldürənə qanunlara görə ən yüksək cəza verirlər. Ancaq burada gör nə qədər adam həlak olubdur - bir nəfər günahkar meydana çıxmayıbdır. Bu qədər qanunsuzluğa, demokratiyanın bu qədər pozulmasına dözmək olmaz. Ona görə bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın Ali hakimiyyət orqanından tələb etməliyik ki, buna baxsın və günahkarlar cəzalandırılsın.

**20 noyabr 1990-cı il**

**Qayıdış (1990-1993). – B., 2008. – S. 136-139.**

# "Şit" ictimai təşkilatının müstəqil təhqiqatının nəticələri

## Fövqəladə vəziyyət tətbiq edilməzdən əvvəl şəhərdəki vəziyyət

Yanvarın 13-dən 15-dək olan dövrdə Bakıda erməni əhaliyə qarşı kütləvi talanlar baş vermişdir. Heç bir təqsiri olmayan kişilər və qadınlar, ahıl adamlar öldürülürdü. Erməni ailələri Bakı qarnizonunun hissələrində, Qırmızı Bayraq Ordenli Xəzər hərbi Donanmasında, rayon daxili işlər şöbələrində, məscidlərdə, milliyyətcə azərbaycanlı və rus olan ayrı-ayrı vətəndaşların evlərində sığınacaq tapır və qorunurdular. Elə həmin günlərdə hərbi qulluqçuların və dənizçilərin, habelə Azərbaycan Xalq Cəbhəsinin demokratik cinahının köməyi və mühafizəsi ilə erməni ailələrinin kütləvi surətdə köçürülməsinə başlanmışdı və bu iş ta fövqəladə vəziyyət elan olunanadək davam etdirildi. Sonrakı günlərdə ermənilərə qarşı talanların vüsəti zəifləmişdi. Yanvarın 18-19-da əslində heç bir talan yox idi.

Talanlar zamanı Azərbaycanın Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Komitəsinin şəxsi heyətinin və həmin vaxt şəhərdə olmuş SSRİ Daxili İşlər Nazirliyinin daxili qoşunları heç bir iş görmürdülər, hərçənd aşkar qətllər, zorakılıq, qarətlər və azğınlıqlar baş verirdi.

## Teleradio mərkəzinin enerji blokunun partladılması

SSRİ Ali Soveti Millətlər Sovetinin milli siyasi və millətlərarası münasibətlər üzrə komissiyasının hazırladığı arayışda iddia edilir ki, teleradio mərkəzinin enerji bloku Xalq Cəbhəsinin xadimləri tərəfindən sıradan çıxarılmışdır. Bu informasiyanı mətbuat və televiziya dəfələrlə təkrar etmişdir. Amma faktlar başqa şey deyir.

Teleradio mərkəzinin keşiyini Bakı Ümumqoşun Komandirləri Məktəbinin kursantları (160 nəfər) çəkirdi. Yanvarın 19-da saat 19-da yarıhərbi-yarıidman forması geymiş 4 nəfər silahlı adam teleradio mərkəzinə gəldi. Mərkəzin mühafizə dəstəsi gələnlərin sərəncamlarını sözsüz yerinə yetirirdi. Gələnlər enerji blokunun növbə rəisi İ.Hüseynovdan və növbə elektriki V.Romanovdan soruşub aydınlaşdırdılar ki, teleradio mərkəzinin enerji təchizatını necə pozmaq olar, ehtiyat dizel-elektrik generatorları varmı (belə generatorlar yox idi). Hüseynovu və Romanovu sorğu-suala tutduqdan sonra otaqdan çıxartdılar və mühafizə altına aldılar. Saat 19-25 dəqiqədə enerji bloku partladıldı. Teleradio mərkəzinin keşiyini çəkənlər heç bir reaksiya vermədilər. Partlayış və yanğın haqqında məlumat Bakı Şəhər Soveti İcraiyyə Komitəsinin Daxili İşlər İdarəsinə saat 19.30 dəqiqədə verildi. Lakin teleradio mərkəzinin keşiyini çəkən hərbçilər milis əməkdaşlarını oraya buraxmadılar. Yanvarın 20-də səhər Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin əməliyyat-istintaq qrupu (istintaq şöbəsi rəisinin müavini polkovnik R.Mansurov) istintaq yerini nəzərdən keçirib sənədlər tərtib etmişdi. Amma biz yoxlamanın nəticələri ilə tanış ola bilməmişik. Ekspertlərin çıxartdıqları nəticə budur: teleradio mərkəzinin enerji blokunu Sovet Ordusunun və ya SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin xüsusi qrupu partlatmışdır.

## Fövqəladə vəziyyət tətbiq edilməsi haqqında xəbərdarlıq

Hərbi qüvvə işlədilməyə hazırlıq görüldüyü barədə əhalinin vaxtında xəbərdar edilməsinin böyük əhəmiyyəti vardır: belə olsaydı, adamlar ağıllarını başlarına yığar və evlərinə dağılışardılar, tələfat az olardı. Vətəndaşlıq hüquqları və siyasi hüquqlar haqqında 1966-cı il tarixli beynəlxalq paktın 4-cü maddəsinin 1-ci bəndində deyilir ki, fövqəladə vəziyyət tətbiq ediləcəyini rəsmən elan etmək lazımdır. Halbuki Bakıda fövqəladə vəziyyət tətbiq edildiyini əhali ilk dəfə ancaq yanvarın 20-də səhər saat 5.30 dəqiqədə şəhərin komendantı Dubinyakın radio ilə çıxışından və vertolyotların səpməyə başladıqları vərəqələrdən öyrənmişdi — o vaxt şəhər artıq qoşunlar tərəfindən tutulmuş və qırğın olmuşdu.

## Psixoloji hazırlıq

Bakı qarnizonunun, Qırmızı Bayraq Ordenli Xəzər Hərbi Donanmasının, Bakı Ümumqoşun Komandirləri Məktəbinin hissələrindən istifadə edilən istiqamətlərdə mülki əhali arasında tələfat az olmuşdur. Şəhərə ilk dəfə qədəm qoyan və güclü psixoloji hazırlıq keçən ehtiyat qüvvələr və hissələr barədə isə tamamilə başqa sözlər deyilməlidir. Şəxsi heyətə təlqin etmişdilər ki, ordunun Bakıya yeridilməsindən məqsəd yerli əhalinin vəhşicəsinə qırdığı rusları qorumaqdır; evlər, damlar, mənzillər Xalq Cəbhəsinin avtomatçıları ilə doludur. Şəxsi heyət öz həyatı üçün qorxur, qızğın müqavimət gözləyirdi, amansızlıq etməyə psixoloji cəhətdən hazır idi. Bundan əlavə, ehtiyatdan çağırılanlar arasında cinayətkarlar da vardı.

## Qoşunların şəhərə yeridilməsi

Yanvarın 20-ə keçən gecə şəhərin giriş yolları, Bakı qarnizonu hissələrinin məskən saldıqları yerlərini qapıları ağır yük maşınları ilə, beton bloklarla blokadaya alınmışdı, piketçilər tərəfindən qorunurdu. Piketçilərin silahlı olduğunu təsdiq edən sənədlər yoxdur; rəsmi şəxslər də belə sübutlar təqdim etməmişlər.

Qoşunlar Bakıya yanvarın 20-də saat 00-da "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" SSRİ Ali Soveti Rəyasət Heyətinin 1990-cı il 19 yanvar tarixli fərmanına müvafiq surətdə daxil olmağa başlamışdılar.

Tanklardan, zirehli transportyorlardan, piyadaların döyüş maşınlarından istifadə edilirdi (zirehli texnikanın üstündə nömrələr yox idi); Qırmızı Bayraq Ordenli Xəzər hərbi Donanmasının gəmilərindən desant çıxarılmışdı.

Qoşunlar bütün istiqamətlərdə avtomat və pulemyotlardan necə gəldi atəş açırdılar və bunun da nəticəsində mülki əhali arasında çoxlu tələfat olmuşdur; 121 nəfər həlak olmuş, 700-dən çox adam yaralanmış,

12 nəfər itkin düşmüşdür. Aeroport rayonundan kələn qoşunlar xüsusilə amansız hərəkət edirdilər — onlar ehtiyatdan çağırılanlar hesabına komplektləşdirilmişdi. Səhər saat 6-da şəhər qoşunların tam nəzarət altında idi. Yanvarın 20-24-də şəhərin müxtəlif yerlərində nizamsız atışmalar davam etmişdir, Salyan kazarmaları rayonunda xüsusilə intensiv atışma olmuşdur.

Piketçilərin silahlı olduğunu sübut edən sənədlər olmasa da, blokadanın yarıldığı ilk dəqiqələrdə piketlər tərəfdən qoşunlara atəşlər açılmış, məhz bu, ordunu geniş miqyasda atəş açmağa təhrik etmişdir. Ordunun ümumi itkisi belədir: 21 nəfər həlak olmuş, 90 nəfər yaralanmışdır. Lakin əgər piketçilər silahlı olsaydılar, şəhər vuruşması şəraitində hücuma keçənlərin tələfatı bir neçə dəfə çox olardı. Saysız-hesabsız şahidlər təsdiq edirlər ki, şəhərin müxtəlif yerlərində qoşunlara avtomatdan atəş açan nömrəsiz minik maşınlarının şütüdüyünü görmüşlər. Bu maşınlar qoşuna atəş açan kimi dərhal uzaqlaşırdı. Maşınlarda kimlərin olduğu müəyyən edilməmişdir.

## Salyan kazarmaları yaxınlığında vuruşma

Hissənin komandiri, polkovnik Antonovun verdiyi məlumatdan belə çıxır ki, yanvarın 19-dan 20-nə keçən gecə Salyan kazarmalarından bayıra çıxan zirehli texnika və hərbçilər şiddətli pulemyot-avtomat atəşi, yaxınlıqdakı evlərin pəncərələrindən və damlarından yaraqlı snayperlərin atəşi ilə qarşılaşmışlar. Qoşunlar cavab atəşi açmışlar. Amma blokadanın yarılmasında iştirak etmiş hərbi qulluqçuların və kazarmaların ətrafındakı evlərdə yaşayan adamların dediklərinə görə, kazarmanın darvazası qarşısındakı qalaqlar saat 00.30 dəqiqədə artıq dağıdılmışdı. Hər iki istiqamətdə intensiv atışma saat 2-dək davam etmişdir. Gecə saat 2-də "Krasnı Vostok" məhəlləsindəki 1 nömrəli evin və başqa evlərin girəcəklərində əsgərlər vardı. Onlar birinci mərtəbəyə toplaşmış sakinlərin gözü qarşısındaca giriş qapılarından çıxıb avtomatlardan küçə boyunca nişan almadan uzun-uzadı atəş açır, güllələri yelpik kimi səpələyirdilər. Gündüz saat 13-də məhəllənin yaşayış evləri (xüsusən 1 və 333 nömrəli evlər) Salyan kazarmaları tərəfdən intensiv atəşə tutulmağa başlanmışdı. Saat 16-da 1 nömrəli evin dördüncü mərtəbəsinin mənzilləri qumbaralardan atəşə tutulmuş və bu zaman iki mənzil tamamilə darmadağın edilmiş, yanğın qopmuşdu. Sakinlər əsgərlərə təklif etmişdilər ki, dama qalxıb kimin atəş açdığını öyrənsinlər. Onlar əsgərləri inandırmağa çalışırdılar ki, 1 nömrəli evdə və yaxınlıqdakı evlərdə zabit ailələri (əsasən istefada olan zabitlərin ailələri) yaşayırlar, burada heç bir terrorçu yoxdur. Buna baxmayaraq, atəş davam etdirilmişdir yanvarın 21-də, 22-də, 23-də və 24-də intensiv atışmalar olmuşdur.

Əldə olan məlumatı təhlil etməklə hərbi ekspertlər aşağıdakıları aydInlaşdırmışlar. "İkitərəfli" intensiv pulemyot-avtomat atəşinin və snayperlərin atəşinin ilk saatlarında ərazidə çoxlu adam olduğu halda iki hərbi qulluqçu öldürülmüşdür. Onları ilk dəqiqələrdə – birini şimal qapısı, digərini cənub qapısı ağzında öldürmüşlər. Əgər doğrudan da intensiv atəş getsəydi, ölənlərin və yaralananların sayı qat-qat çox olardı.

1 və 333 nömrəli evlərin tamamilə darmadağın edilmiş mənzilləri bir yana, onların divarlarında və salamat qalmış pəncərələrin şüşələrində onlarca güllə izi vardır. Hərbi ekspertlər tibb-sanitariya hissəsində qırılmış iki

şüşə istisna edilməklə "üzbəüz tərəfdə", Salyan kazarmalarının evlərinin divarlarında bir dənə də güllə izi aşkar etməmişlər, hərçənd qarşılıqlı atışmalar beş gün davam etmişdir.

Güman etmək təbiidir ki, beş günlük döyüşlər ərzində yaraqlıların və snayperlərin bir neçəsi silahı ilə birlikdə yaxalanmalı, onların familiyaları, adları, əllərindəki silahın tipləri və başqa əlamətlər müəyyən edilməli idi. Amma vəzifəli şəxslər istintaq komissiyasına nə bir dəlil təqdim edə bilmişlər, nə də bir familiya.

Ekspertlər bu nəticəyə gəlmişlər ki, yanvarın 20-də ilk saatlarda məhəllənin yaşayış evləri tərəfdən adam vurmaq məqsədilə intensiv pulemyot-avtomat atəşi olmamış, yaraqlı snayperlər atəş açmamışlar. Yanvarın 21-24-də qəsəbənin evləri tərəfdən gülləsiz patronlarla atəş açan xüsusi qrup olmuşdur. Bu yalançı atışma komandanlığa ondan ötrü lazım idi ki, ekstremistlərin guya uzun müddət müqavimət göstərib vuruşduqlarını sübut etsin, mülki əhali arasında böyük tələfata haqq qazandırsın.

## Nəticələr

Bakıda fövqəladə vəziyyət tətbiq edilməsi gedişində aşağıdakılar baş vermişdir:

* adamlar yaxın məsafədən açılan atəşlə, xüsusi qəddarlıqla yerindəcə öldürülmüşlər. Məsələn, içərisində sərnişinlər, o cümlədən uşaqlar olan 39 nömrəli "İkarus" avtobusu gülləyə tutulmuşdur;

* tanklar və zirehli transportyorlar qəsdən minik maşınlarını basmış və onların içərisində olan adamlar öldürülmüşdür;

* xəstəxanalar, təcili yardım maşınları atəşə tutulmuşdur. Məsələn, tanklar 67-50 AQP, 67-51 AQP, 39-97 AQS nömrəli "təcili yardım" maşınlarını atəşə tutmuşdur. Həkim A.Marxyovka öldürülmüşdür:

* Kalaşnikov avtomatlarından ağırlıq mərkəzi dəyişdirilmiş 5,45 çaplı güllələr atılmışdır. Bədənə daxil olanda hərəkət istiqamətini dəyişən belə güllə insanı sıradan çıxarmaqla yanaşı, onun iztirablarını qat-qat artırır;

* ölülərin qiymətli şeyləri oğurlanmış, mənzillər qarət edilmiş və vətəndaşlar soyulmuş, tutulub saxlananlar təhqir edilmiş, onların insanlıq ləyaqəti alçaldılmışdır.

## Yekun

Bakıda SSRİ Silahlı Qüvvələrindən xarici təcavüzdən müdafiə üçün deyil, ölkənin öz xalqına qarşı istifadə olunmuşdur. Bu cəza əməliyyatı müharibə aparılmasının beynəlxalq hüquqla qadağan edilmiş vasitələrindən istifadə olunmaqla təqsirsiz adamların qabaqcadan təşkil edilmiş qırğınıdır. Əməliyyata rəhbərlik

etmiş və ordunun şəxsi heyətinin hərbi cinayətlər törətməsinə imkan vermiş SSRİ Müdafiə naziri bununla da beynəlxalq hərbi tribunalın nizamnaməsinin 6-cı maddəsinə, habelə Azərbaycan SSR Cinayət Məcəlləsinin şəxsiyyətə qarşı cinayətlərə aid maddələrinə (üçüncü fəsil) düşən hərbi cinayət işləmişdir. Ordunun heyətinin hərbi cinayətlər törətmiş başqa şəxsləri barəsində də cinayət işləri qaldırılmalıdır. Bakı şəhərinin vətəndaşlarına, idarə və təşkilatlarına vurulmuş maddi zərərin əvəzi SSRİ Müdafiə Nazirliyi tərəfindən ödənilməlidir. Elə həmin mənbələrdən öldürülənlərin ailələrinə kompensasiyalar və müavinətlər verilməli, yaralıların və şikəstlərin müalicə olunması və reabilitasiyası ilə əlaqədar xərclər ödənilməlidir.

Müstəqil hərbi ekspertlər bu rəyi SSRİ-nin, RSFSR-in, bütün müttəfiq respublikaların xalq deputatlarının nəzərinə çatdırmağı vacib bilirlər.

***A. Yevstiqneyev.***

ehtiyatda olan 1 dərəcəli kapitan, texnika elmlər namizədi;

***Q.Melkov.***

ehtiyatda olan II dərəcəli kapitan.

Hüquq elmləri doktoru;

***B.Murasov.***

ehtiyatda olan podpolkovnik.

**Mənbə: İ.Vəliyev. Qara Gündəlik – B. 1997. – S. 127-134.**

## Azərbaycan KP MK aparatının ilk partiya təşkilatının 22 yanvar 1990-cı il tarixli yığıncağının 3 nömrəli protokolundan çıxarış

**GÜNDƏLİK:**

1. **Respublikadakı vəziyyət haqqında**

**Çıxış etdilər:**

**Axundov A. X. – Azərbaycan KP MK-nın katibliyi yanında təlimatçı:**

- Qorbaçovun yenidənqurması və demokratikləşməsi Azərbaycan xalqı üçün qanlı olmuşdur. Xalq partiya ilə birliyə inamını itirmişdir. Bu gün mən özümə verilən bir sıra suallara cavab tapa bilmirəm.

Ölkədəki və bölgələrdəki vəziyyəti nə üçün ölkə rəhbərliyi bəsitləşdirir, bunları yeniləşmə, yenidənqurma, yeni təfəkkür adlandırır?

Qorbaçovun başçılığı ilə mərkəzi aparatın fəaliyyətsizliyi – (məsələnin həllinin sülh, demokratik yolunda xalqların dialoqa çağırışlarındadır.

Bütün dünyanın gözü qabağında Sov.İKP MK-nın rəhbərliyinin erməni diasporası, məşhur müğənnisi ilə sövdələşmə apardığı zamanı hansı sülh danışığından söhbət gedə bilər? Qorbaçovun bütün ətrafında – partiya dövlət aparatının bütün yuxarı səviyyələrində erməni lobbisi oturub.

Xalqdan heç nəyi gizlətmək olmaz. Biz həmişə hiss edirik ki, baş katib ermənilərin hərəkətlərinə öz münasibətini açıq bildirə bilmir, nə isə onu həmişə çəkindirir.

Nə üçün? Hisslərin ən çovğun zamanı SSRİ Nazirlər Soveti sədrinin müavini erməni təyin olunur. Sual çoxdur.

Suveren Azərbaycana ordu yeridilməsi kimlə razılaşdırılmışdı? Və nə üçün, bilərək ki, ordu mütləq yeridiləcək, bu haqda xalqa açıq-aydın deyilməmişdi. Bu, qanın qarşısını ala bilərdi. Xalqın qanından ötrü kim cavab verəcək?

Ordu xalqın iradəsinin əksinə yeridilmişdir. Rəsmi informasiya bunun əksini deyir. Belə bir fikir aşılanır ki, ölkənin Ali Soveti xalqın xahişini nəzərə alaraq ordu yerimişdir. Soruşulur ki, hansı xalqın və nə üçün belə anonim? Nə üçün xalqın müqəddəratı sessiyada yox, kənarda, kiminsə diktəsi ilə həll olunur? Rəhbərliyin ört-basdır etdiyi hərəkətləri haqqında onunla fikir yürütmək olar ki, azərbaycanlıların qırılmasına müdafiə naziri Yazov özü şəxsən rəhbərlik edib.

Nə üçün Ermənistan tərəfdən Azərbaycan ərazisinə hücumlar edilən zaman erməni rəhbərliyinin hərəkətlərinə siyasi qiymət verilməyib? Nə üçün respublikanın kəndlərinə olan vertolyot hücumları faktları susdurulurdu? Bütün bunlar mərkəzin diqqətindən kənarda qalır.

Bizdə şəxsi zirehli maşın və ya vertolyot almaq olar? Bunlar haradan alınır? Şanlı sovet ordusunun heyətindənmi? Yaxşı olmazdı ki, ordunun enerjisi lazımi istiqamətə yönələydi?

Amerika bu gün belə hesab edir ki, daxildə qayda-qanun yaratmaq hər ölkənin öz işidir. Bu, Bakıda baş verən işğala və kütləvi qan tökməyə verilən rəsmi qiymətdir.

Ölkənin mətbuat vasitələri Bakıda törədilənləri tamamilə araşdırmır. Ancaq iki xalq arasındakı millətlərarası münaqişədən danışılır. Sovet ordusu sülhsevər kimi qələmə verilir. Minlərlə öldürülmüş və yaralanmış — Qərbin təkrarladığı qayda-qanunun məhsulu budur.

Nə üçün DQMV-yə kütləvi silah gətirilməsi və «saqqallıların» daimi desantları cəzasız qalıb? Nə üçün Mərkəzi televiziya ilə Şaumyan (kənd) rayonunun rəhbərliyinin silah gətirdiyi faktı deyilmir?

Silahsız əhali qarşısında özünü göstərmək, Qorbaçovun eqoist məqsədlərinə xidmət edən qan dənizi Azərbaycan xalqını sındıra bilməmişdir, ölkə xalqlarını qorxuda bilməmişdir.

Həyasız hərbi əməliyyat, Azərbaycan xalqının şüurlu məhv edilməsi ölkə rəhbərliyinin iç üzünü açdı. Onlar bu gün əsasən Litvadan sonra, özlərinin hörmətdən düşmüş rəhbərliyini saxlamaq üçün istənilən iyrənc hərəkətlərə getməyə hazırdırlar.

Qanlı Bakı şənbəsi – əlləri çiyinlərinə qədər qadınların, qocaların, uşaqların, silahsız xalqın qanına boyanmış Qorbaçovun həyata keçirdiyi yenidənqurmasına bir abidədir.

Qorbaçovun Buşla Panamadakı qanla Azərbaycandakı qanı bölüşmələrini başa düşmək üçün böyük siyasətçi olmaq gərək deyil. SSRİ-nin Panamadakı hadisələrə utanmadan susmağı buna sübut deyilmi? Ölkədə islamçılığın yayılması qorxusu, Azərbaycan Xalq Cəbhəsinin fəallığı Sov. MK-nın Siyasi Bürosunun qorxusunu artırmışdır. Bu hisslər daşnak Ermənistanı, onun rəhbərliyi və mətbuatı tərəfindən hər vasitə ilə qızışdırılır.

Bunlar kimə lazımdır və kimə xidmət edir?

Sov.İKP MK-nın DQMV məqaləsindəki qətiyyətsizliyi və passivliyi, kənar müşahidəçi rolunu oynaması bugünkü kütləvi qan tökülməsinə gətirmişdir. Zəiflik və qeyri-qanuni bəyanatlar üçün cavabdehsizlik qarşıdakı tərəfdə inam yaratmışdır.

Bunların bəlkə də hamısının düşünülmüş olması haqqında sual yaranır.

Xalqı lazımsız tökülən qandan xilas etmək naminə məsələlərin həlli yollarını (kompromis olsa belə) qana bilməmiş bizim vecsiz rəhbərimiz Vəzirov haqqında bir neçə söz demək istəyirəm.

Heç bir təşkilatçılıq qabiliyyəti olmayan Vəzirov heç kimin rəyinə qulaq asmır, aparatla hesablaşmırdı. Ölkə rəhbərliyi qarşısında zəiflik göstərməsi, iş yoldaşları və xalqdan təcridlik bugünkü qanlı günə gətirmişdir. İki il kiminləsə şəxsi haqq-hesab çəkən, kimisə, hansısa mafiyanı günahlandıran respublika rəhbərliyi gündən-günə xalqın istək və arzularından aralanaraq öz nöqsanlarını görməyirdi.

MK bürosunda hansı qərarların və nə cür qəbul olunmasını çox zaman bilməyən MK aparatı gözübağlı işləyirdi.

Vəzirov öz xalqı, respublika kommunistləri ilə ümumi dil tapa bilmədi.

Yəqin ki, partiya tarixində birinci dəfədir ki, ilk partiya təşkilatında RKP birinci katibinin partiyadan çıxarılması məsələsi qoyulur; 3 həftə ərzində rayonda 3 birinci katib dəyişdirilir, birinci dəfədir ki, müəssisə direktoru silah və kütləvi təzyiq gücünə birinci katib olur; birinci dəfədir ki, MK-nın nümayəndəsi olmadan rayonun partaktivi kiminsə mənafeyi naminə birinci katib seçir.

MK bu proseslərə kənar müşahidəçi olmaqla öz onsuz da olmayan hörmətini itirdi.

Mən şəxsən bütün bəlalarda Vəzirovun avtoritar rejimini günahlandırır və onun günahsız adamların qanı üçün şəxsi məsuliyyətə cəlb olunmasını tələb edirəm.

Təcili olaraq Sov. İKP-nın fövqəladə qurultayını çağırmaq lazımdır və hal-hazırkı Siyasi Büronun ölkəyə rəhbərlik edə bilib-bilməməsi məsələsinə baxılmalıdır.

**Əliyev M. İ. – MK-nın partiya-təşkilat və kadr işləri şöbəsinin məsləhətçisi;**

- Qoyulmuş ənənələrə görə, biz gündəlik haqqında məruzə və informasiyaları dinləməli idik. Ancaq iş o yerdədir ki, MK aparatı partiya təşkilatı 8 ay müddətində özündə iradə tapmadı ki, əhalinin gözü qabağında baş verən biabırçılıqlara öz münasibətini bildirsin. Bunlar DQMV problemindən irəli gələn proseslərlə birgə respublikanı faciəli nəticələrə gətirmişdir. Bunların neçə və niyə baş verməsinin araşdırılması hələ qabaqdadır və bizim imkanlarımızdan kənardır, çünki büronun və bütövlükdə Azərbaycan KP MK-nın tərkibinin işinə toxunur.

Şübhə yoxdur ki, Azərbaycan təşkilatı bu məsələnin tam aydınlaşdırılması üçün özündə qüvvə tapacaqdır. Amma bu gün Vəzirov siyasətinin qurbanlarının dəfn günü o siyasətin daşıyıcısı olan kommunistə münasibət bildirilməlidir. Kritik vəziyyətdə xalqını atmış, faciəni aradan qaldırmaq üçün hər şeyin edilməsi vacib olan vaxtda o özünü xalqın qabaqcıl hissəsini təşkil edən partiya cərgələrindən silmişdir. Ona görə də həlak olmuş cavanları torpağa tapşırana qədər Vəzirovun üstündən kommunist adı götürülməlidir. Bu artıq həll olunmuş faktdır və ilk partiya təşkilatının qərarı bunu bir daha təkrarlayacaq.

Təklif edirəm ki, Azərbaycan KP MK-nın keçmiş birinci katibi Əbdürrahman Vəzirov partiya rəhbərliyinin bütün sahələrində yarıtmaz işinə görə partiya sıralarından çıxarılsın. Təsdiq üçün bu saat onlarla həlak olmuşları axırıncı mənzilə yola salmaq üçün Bakının küçələrinə çıxmış yüz minlərlə adamı göstərə bilərəm. Onları fövqəladə vəziyyət şəraitində ordu ilə təhlükəli qarşıdurmadan kənarlaşdırmaqdan çəkindirməyi şəxsən Vəzirov lazım bilmədi.

Təklif edirəm ki, baş vermiş hadisələrə siyasi qiymət verilməsi məsələsi hazırlansın və Azərbaycan KP MK-da, respublika Ali Sovetinin və SSRİ Ali Soveti sessiyalarında bu məsələyə baxılsın.

**Səlimov R. B. – MK-nın partiya-təşkilat və kadr işləri şöbəsinin məsul təşkilatçısı:**

- Yoldaşlar! Vəziyyət haqqında danışmaq artıqdır. Bu gün saat 12-də dəfndir və biz hamımız orada iştirak etməliyik. Bu birinci. İkincisi, Qorbaçov bir dəfə çıxışında demişdir ki, Stalinin siyasətini güclü adlandırmaq olmaz. Hakimiyyət xalqın olmalıdır və ancaq onda o güclü ola bilər. Hakimiyyəti saxlamaq üçün biz yenə də süngülərə arxalanacağıqmı? MK mühasirəyə alınmış və biz hakimiyyəti saxlamaq üçün bu addımı atmışıq. Mən hesab edirəm ki, MK-nın plenumu çağırılmalı, respublikadakı vəziyyətə siyasi qiymət verilməli və birinci katib seçilməlidir. Bu elə adam olmalıdır ki, xalqın arasında populyar olsun (**Alqışlar**). Hamınız yaxşı bilirsiniz ki, söhbət kimdən gedir. Ona görə də referendum keçirib elə adamı seçmək lazımdır ki, xalq ona inanır, Siyasi Büronu razı salanı yox.

Azərbaycan KP-nin fövqəladə qurultayının çağırılması məsələsinə baxılmalı və gündəliyinə Azərbaycan KP-nin müstəqilliyi məsələsi qoyulmalıdır.

Kommunistlər partiya biletlərini yandırır. Sessiyada respublikanın müstəqilliyi və birinci növbədə iqtisadi müstəqilliyi məsələsi qəti qoyulmalıdır. Vəziyyətə siyasi qiymət verilməsi, kimin günahkar olması, ölkə partiya rəhbərliyinin, MK-nın keçmiş birinci katibinin hərəkətlərinə siyasi qiymət verilməsi haqqında Azərbaycan KP MK-nın müraciətini elə bu gün hazırlanmalıdır. Bu müraciət radio ilə verilməli, komendant eləyən kimi vertolyotlardan şəhərə səpələməlidir.

Əgər bu tədbirlər görülməsə, vəziyyətə təsir göstərə bilməsək, mən bu haqda yoldaşlarla danışmışam, özümüz istefa verəcəyik.

**Əliyev E. A. – MK-nın partiya-təşkilat və kadr işləri şöbəsinin məsul təşkilatçısı:**

- Yoldaşlar! Mənim yeganə xahişim var – gəlin heç olmasa bu zalda ehtirasları coşdurmayaq. Biz hamımız bir-birimizi tanıyır və Kommunist Partiyasına, qulluq etdiyimiz işə sadiqliyimizi bilirik. İl yarım idi ki, KP MK fəaliyyətsiz idi. Siz düşünün, yazılarınıza baxın, görərsiniz ki, il yarım ərzində bir dənə da olsun ağıllı göstəriş almamışıq. Vəziyyətdən çıxmaq üçün bir dənə də olsun ağıllı istiqamət göstərilməyib. Mən partiyanı günahlandırmaq istəmirəm. Biz bilirik ki, bizdə demokratiya neçə həyata keçirilir, kollektiv qərar necə qəbul edilir.

Mən rayonlara getməyə utanırdım. Onların MK işçilərini görən gözü yox idi, çünki il yarım ərzində bizdən bir dənə də olsun ağıllı qərar görməmişdilər. Hətta indi də mənə birinci katiblər zəng edib soruşurlar ki, nə edək? Mən də öz səviyyəmdə onlara cavab verməyə borcluyam. Mən kommunist olmağımla fəxr edirəm və bir neçə dəfə demişəm ki, mitinqdə çıxıb haqqı deyəcəyəm. Cəlilabad hadisələrinə toxunmaq istəmirəm.

— Hədələr var idi, amma mən layiqincə MK-nın avtoritetini qaldırırdım. Mən istəyirəm ki, Vəzirovun partiya və cinayət məsuliyyəti məsələləri qoyulsun, Azərbaycan KP müstəqilliyi məsələsinə baxan fövqəladə qurultay çağırılsın.

Mən istəyirəm ki, biz bütün dünya xalqlarına müraciət qəbul edək. Sessiya müraciət qəbul etmiş və siyasi qiymət vermişdir.

**Bəşirov Ç. A – dövlət hüquq şöbəsinin təlimatçısı.**

- Mən burada deyilənlərin çoxuna şərikəm. Fövqəladə qurultay çağırılması məsələsinə tərəfdaram və təklif edirəm ki, birinci katib seçiləcək, plenumda ikinci məsələ fövqəladə sessiyanın çağırılması olsun. Əgər biz xalqın inamını qazanmasaq, özümüzü siyasi meyit hesab etməliyik.

Mən səsə qoymaq istəyirəm ki, partiya təşkilatının üzvü olan Ali Sovetin deputatları sessiyada referendum haqqında qanunun qəbulu məsələsini qoysunlar. Görək xalq nə fikirləşir. Bizim şöbə layihə hazırlamağa hazırdır və artıq onunla məşğul olur. Bu məsələni sessiyaya qoymaq lazımdır.

**Orucov T. X. – Azərbaycan KP MK-nın katibi:**

- Yoldaşlar! Mən elə düşünürəm ki, bu gün gözəl çıxışlar yox, ağıllı hərəkətlər vaxtıdır.

Respublikanın müqəddəratını, öz millətinin tarixi müqəddəratını hər birimiz, Azərbaycan KP MK aparatının hər bir işçisi aydın və tam, məsuliyyəti ilə hiss etməlidir. Əgər bu matəm günlərində kimsə tərəddüd edirdisə də, indi biz birləşməli və xalqla bir olmalıyıq.

Biz bunu hərəkətlərimizlə göstərməliyik. Müxtəlif mitinqlərdə bizdən daha gözəl çıxışlar, daha ali çağırışlar olur. Bu gün gəlin vəziyyəti daha da gərginləşdirməyək. Bu gün partiya təşkilatı parçalanır.

Bu ay başlanan dağılma prosesi indiki intensivliyi ilə getsə bir neçə gündən sonra heç bir qəlpə də qalmayacaq. Sonra biz Kommunist Partiyasını dirçəldə, dağıntılar üzərində tikə bilməyəcəyik. Biz kommunist kimi, məsuliyyət daşıyırıq.

Bu gün müxtəlif çıxışlar ola bilər, ancaq fikirlər partiya təşkilatının taleyi haqqında olmalıdır. Partiya təşkilatını xilas edə, saxlaya biləcəyikmi? Yoxsa özümüzü emosiyalara, bir dəqiqəlik çağırışlara qurban verəcəyik?

Bu gün təkcə Bakı yox, bütöv Azərbaycan xalqı öz oğulları ilə axırıncı dəfə vidalaşır. Gəlin elə edək ki, bu matəm bütün dünyaya bizim əqlimizin, çətin dəqiqələrdə emosiyalardan yuxarı olmaq bacarığımızın nə qədər güclü olduğunu göstərək. Bütün dünyaya göstərək ki, Azərbaycan xalqı mənəvi və fiziki itkilərinə baxmayaraq, gələcəyə inamla baxır, özü öz taleyini həll edə bilər. Bu haqda hər birimiz fikirləşməli və öz payımızı nəinki gözəl sözlər, həmçinin işlərimizlə verməliyik.

Bu gün hər birimiz elə etməliyik ki, matəm xalqımızın bütün xüsusiyyətlərini və ənənələrini gözləməklə lazımi səviyyədə keçsin. Kim ki, aktiv iştirak edəcək, elə etməlidir ki, matəm kütləvi və ümumxalq olsun. Mən elə düşünürəm ki, MK katiblərini sizlərdən ayıran heç bir maraqları yoxdur. Bizim xalqın, millətin marağından fərqlənən heç bir digər marağımız yoxdur.

Bu gün bizi parçalamaq istəyən qüvvələr var, lakin, buna yol vermək olmaz. Bu gün bizim üstümüzə, bizim partiya təşkilatımızın üstünə nəhəng qüvvə yeriyir.

Əgər biz birgə hərəkət etsək, ümumi səylərlə vəziyyəti xilas edə bilərik. Əgər parçalanmanı saxlaya bilməsək, bir qədərdən sonra KP MK olmayacaq. Mən sizi ümumi səylərə və hərəkətlərə çağırıram.

**Zeynalov R. Y. – Azərbaycan KP MK-nın katibi:**

- Biz burada bir yerdəyiksə, gəlin həlak olanları bir dəqiqəlik sükutla yad edək.

Mənə danışmaq çətindir. Zalda oturan adamlarla uzun illərdir ki, bir yerdə işləyirik. Yoldaşların burada dedikləri hisslərlə mən də bölüşürəm. Bu gün — sınaq günüdür. Burada mərkəzdənqaçma qüvvələri çoxdur və çoxlu vaxt lazımdır ki, respublikada baş verənlər araşdırılsın. İndi əsas məsələ bəladan çıxmaqdır. Mən sizə sirr açmaram, desəm ki, biz MK bürosu, istefa vermək istəyirdik. Amma sonra qərara aldıq ki, plenum keçənə qədər kimsə rəhbərlik sükanı arxasında durmalıdır. Birliyi saxlamaq lazımdır.

**Səlimov R. B. – MK-nın partiya-təşkilat və kadr işləri şöbəsinin məsul təşkilatçısı:**

- Mən katib kimi demək istəyirəm ki, bizə parçalanma haqqında danışmaq lazım deyil. Bu gün aparat birgədir və hamı bir yerdə olacaq. Biz istəyirik ki, xalqın təyin etdiyi qərar təxirəsalınmaz olsun.

**Polyaniçko V. P. – Azərbaycan KP MK-nın ikinci katibi:**

- Zaman hal-hazırda nəinki ağır, mürəkkəb, kritikdir. Tarixdə belə zaman olmamış və düşünürəm ki, olmayacaqdır. Hal-hazırda biz təmkinlə, sakit hərəkət etməli və nə eləyə biliriksə, insanların sakitliyi naminə etməliyik.

Bugünkü yığıncaqda qaldırılan məsələyə qalanda mən elə düşünürəm ki, vaxt gələcək və biz hər birimiz haqqında onun nə etdiyi və necə etdiyi barədə deyəcəyik. Söhbət ondan gedir ki, bizdə Sovet hakimiyyəti olacaq, ya olmayacaq, Kommunist Partiyası olacaq və ya olmayacaq.

Vəzirova qaldıqda isə, mən düşünürəm ki, MK bürosu lazımi tam informasiyanı verəcək. İndi tələsik qərar vaxtı deyil.

Plenuma gəlincə isə, sabah müəyyənləşdirərik. Mən hesab edirəm ki, bu gün plenum keçirmək olmaz. Başa düşün, bu gün dəfndir. Mən yenə da deyirəm, bu şəraitdə hər kəs nə elədiyi və necə elədiyi haqda tam cavab verəcəkdir. Məsuliyyəti öz üzərimdən götürmürəm, vaxt gələcək, mən də cavab verəcəyəm. Əsas odur ki, partiya vicdanımız təmiz olsun.

Siz MK-nın bürosuna istənilən qərarla müraciət edə bilərsiniz, ancaq qoy o partiya təşkilatının gücsüzlüyünü artırmasın. Mənim inana biləcəyim başqa adamlar yoxdur. Biz xalqı sakitləşdirməliyik.

Ordunun çıxarılması məsələsinə gəldikdə, bu, şəhərdəki qayda-qanundan asılı olacaq. Bunlar bir-biri ilə əlaqədardır.

Əgər indi ordu, daxili qoşunlar getsə, heç bilirsinizmi, nə olacaq? Bu gün axşam rayon katibləri ilə danışanda hamı deyir ki, əhval-ruhiyyə eynidir. Hər kəs istəyir ki, qayda olsun, qoşunlar olsun, lakin kollektiv şəkildə heç kim bunu deməz.

Mən hamının xoşuna gələni deyə bilmərəm. Gəlin şüurlu olaq. Bizə işləmək, böhrandan çıxmaq lazımdır. Vaxt gələcək hər şey öz yerini tutacaq.

**Quliyev S. A.:** – Biz xalqın arasına necə çıxacağıq? Xalqa radio vasitəsi ilə elan etmək lazımdır, öz mövqeyimizi açıq elan etməliyik. Axır illər biz həmişə işdəyik Xalqa demək lazımdır ki, aparatda təmiz adamlar, kommunistlər var. Mən ailəmizdən 7 nəfər itirmişəm, lakin həmişə başı yuxarı gəzmişəm, indi isə camaatın gözünə baxa bilmirəm.

Vəzirov gələndə, yoldaş Köçərli – bizim ağsaqqal, dedi ki, Bağırovu dalğa gətirib. Bəs Vəzirov hansı dalğanın üstündə gəlib? Siz hamınız onun Kirovabadda iş üslubunu, MK-nın aparatındakı işini bilirdiniz, amma heç kimin söz deməyə kişiliyi çatmadı. İndi isə yeganə Azərbaycandan olan səfiri partiya sıralarından xaric etmək istəyirsiz. Mən onunla yanaşı işləmişəm və görürdüm ki, ona təsiri olanlar necə onun səhvlərindən istifadə edirlər. Büro üzvlərinə eyib olsun, sizin namusunuz hanı?

Təklif olunur ki, qərar layihəsi qəbul edilsin.

1. Respublikada böhran vəziyyətinin yaranmasına səbəb olmuş partiya rəhbərliyinin bütün sahələrdəki yarıtmaz işinə, bu zaman kommunist-rəhbər vəzifələrinin icrasını cinayətkarcasına zəifliklə dayandırdığına, ekstremist elementlərin qanundankənar əməllərinin, Bakıda fövqəladə vəziyyət elan ediləndə və ondan qabaq dinc əhalinin faciəli surətdə öldürülməsinin qarşısını almadığına görə Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Xəlil oğlu Vəzirov (1952-ci ildən Sov.İKP-nin üzvü, partiya bileti № 02767000) partiya sıralarından xaric edilsin.

2. Azərbaycan KP MK-nın Dövlət-hüquq şöbəsinin kommunistlərinə tapşırılsın ki, Vəzirovun Azərbaycan xalqı qarşısındakı cinayətlərinə görə ittiham edilməsinin hüquqi əsasını öyrənsinlər.

3. Azərbaycan KP MK-ya aşağıdakı təkliflər verilsin:

— Vəzirovun partiya məsuliyyətliliyi təyin edilsin;

— respublikada baş vermiş faciənin siyasi qiyməti müəyyənləşdirilsin;

— yarımçıq qalmış MK plenumu işə başlayanda respublikadakı vəziyyətin müzakirə edilməsi ilə əlaqədar Sov.İKP-yə müraciət hazırlansın;

- Azərbaycan KP-nın növbəti XXXII qurultayına hazırlıq və keçirilməsi tezləşdirilsin, respublikanın inkişafındakı böhranın aradan götürülməsinə xidmət edən proqram işlənsin;

- SSRİ və Azərbaycan SSR konstitusiyalarına zidd olaraq SSRİ Ali Sovetinin Bakıda fövqəladə vəziyyət elan edilməsinə siyasi qiymət verilməsi Azərbaycan SSR Ali Soveti ilə birgə ölkə Ali Sovetindən tələb edilsin, bu qərarın yerinə yetirilməsi zamanı baş vermiş faciəli nəticələri araşdırmaq üçün komissiya təşkil edilsin.

Səs vermişlər: «lehinə» – yekdilliklə.

**“Azərbaycan”.** - 1994. – 27 yanvar. - № 18 - S. 1-4.

# 24-25 yanvar 1990-cı il tarixində keçirilən Azərbaycan KP MK plenumunun stenoqramından çıxarışlar

## DTK sədri V. Hüseynovun çıxışdan parçalar:

Zənnimcə, ilk növbədə Azərbaycan xalqının yenidənqurma prosesi çərçivəsində gedən demokratik hərəkata fəal qoşulan kütləsi ilə yenidənqurmadan istifadə etmiş hissələrini bir-birindən ayırmalıyıq. Gəlin açıq danışaq. Biz bu gün dövlət siyasi idarəetmə aparatını necə sındırmaq, dövlət strukturlarını necə dağıtmaq, respublikanı içindən necə partlatmaq cəhdləri göstərildiyinin şahidi oluruq. Əgər biz özümüzü realist sayırıqsa, əgər biz həqiqətən də əsl siyasi kateqoriyalarla düşünməyi bacarırıqsa, bizim üçün ağır olsa da, biz hiss etməliyik ki, siyasi hakimiyyəti ələ keçirməyin açıq-aydın elementlərinin şahidiyik. Mən deyərdim ki, az qala mexanizmi sıradan çıxmış dövlətin devrilməsi göz qabağındadır.

Cəmiyyətdə yığılıb-qalmış problemlərdən, sosial-iqtisadi məsələlərin gec həll edilməsindən, sosial müdafiəsizliyindən, xəlvəti iqtisadiyyatın ağırlığından təngə gəlmiş xalq Qarabağ probleminin həllinə inandığı üçün, obyektiv olaraq Azərbaycan Xalq Cəbhəsinin ardınca getdi.

Mitinqlərə gedənlər, «Azərbaycan», «Azadlıq», «Elm» qəzetlərini oxuyanlar əmin idilər ki, AXC həqiqi, mütərəqqi proqram təklif edir. Bu, Kommunist Partiyasının mövcud proqramına alternativdir. Onu oxuyanlar bilir ki, orada çoxlu müsbət şeylər vardır. Ən başlıcası isə bu idi ki, o, həmin proqramı həyata keçirməyə qadir idi. Lakin, zənnimcə, təkrar edirəm, zənnimcə, qısa müddət ərzində nə isə xoşagəlməz bir iş baş verdi. Bu təşkilata rəhbərliyi, necə deyərlər, daha radikal ünsürlər qrupu ələ keçirdi. Əsl Azərbaycan ziyalıları, — mən təkrar edirəm ki, bu mənim şəxsi fikrimdir və partiyanın Mərkəzi Komitəsinin üzvü kimi mənim buna haqqım vardır, – Xalq Cəbhəsinin təməlini qoymuş və prinsip etibarilə onun pozitiv proqramını hazırlamış əsl Azərbaycan ziyalıları bundan uzaqlaşdırıldılar. Cəbhədə hakimiyyəti Milli Müdafiə Şurası adlanan qrup tutdu. Mənim fikrimcə, bu, SSRİ Konstitusiyasına heç cür sığmayan, bizim prinsiplərimizə kəskin şəkildə uyğun gəlməyən terrorist ünsürlərdən ibarət qeyri-qanuni bir qurumdur.

Mən siyasi vəziyyət haqqında plenuma məlumat verərək, 13 yanvara – belə deyə bilərəm ki, xalqımızı ümummilli fəlakət, sosial sarsıntılar astanasına gətirib çıxarmış, daha doğrusu, yaxınlaşdırmış günə gəlib çatmaq istəyirəm.

Yuxarıda deyildiyi kimi, bu, ilk növbədə qanunçuluq və nizam-intizamın sizinlə birlikdə müşahidə etdiyimiz problemlərini, Şimali və Cənubi Azərbaycanın birləşməsi və bir sıra digər problemləri daha da dərinləşdirmiş sosial-iqtisadi gərginliyin nəticəsi idi.

Yoldaşlar, mən çoxlu misallar gətirməyəcəyəm, onlar sizə yaxşı məlumdur. İstehsalat sahəsində neçə yüz min adamın işsiz olması, sosial-iqtisadi göstəricilərimizin kəskin aşağı düşməsi, sosial-iqtisadi sahədə maliyyələşdirmə, əmək məhsuldarlığının aşağı düşməsi. Yoldaşlar, bütün bunlar ardı-arası kəsilməyən mitinqlər, tətillər fonunda baş verirdi. Qaçqınların axışıb gəlməsi ilə problem kəskin şəkildə dərinləşdi.

İndi isə, yoldaşlar, mən sizə qısaca məlumat vermək istəyirəm. Bu gün respublikada olduqca ağır vəziyyət yaranmışdır. Qoy yoldaşlar təəccüblənməsinlər, vəziyyətin əsl dərinliyini nümayiş etdirmək üçün mən bəzi iqtisadi göstəricilər gətirmək istəyirəm. Neft-qaz istehsalı öz gücünün ancaq üçdə biri ilə işləyir (zalda səs-küy). Yoldaşlar, axı biz razılaşdıq ki, siz mənə danışmağa imkan verəcəksiniz. Zənnimcə, bunları təəssüf ki, yoldaşların hamısı təsəvvür edə bilmirlər. Bütün bunlar bu gün insanların həyat və məişətinin bir çox məsələlərinə, istiliklə təmin edilməsinə mənfi təsir göstərir. Son aylarda bizim dəmir yolu gərgin vəziyyətdədir. Onlarca, yüzlərlə misallar çəkmək olar. Bu gün mülki aviasiyanın işi praktiki olaraq dayanıb. İşçilərin təqsiri və rəhbər işçilərin demək olar ki, fəaliyyətsizliyi üzündən texniklər, aviadispetçerlər, demək olar ki, yerüstü xidmətlərin bütün personalı öz iş yerlərini tərk etmişlər. Rabitə obyektləri işi sistemi pozulmuşdur. Praktiki olaraq bu gün telefonla təcili yardım, yanğınsöndürmə və digər xidmətləri çağırmaq olduqca çətindir. Metro istisna olmaqla, şəhər nəqliyyatının işi pozulmuşdur. Yoldaşlar, nə qədər acı olsa da, etiraf edilməlidir ki, ərzaq məhsulları, sənaye malları, ilk istehlak malları təchizatı çox pozulmuşdur. Görürəm ki, çoxları bununla razılaşmaq istəmirlər. Bütün bunlar, yoldaşlar, həm şəhərdə, həm də respublikada siyasi və psixoloji atmosferə təsir edir. Halbuki, lap bu yaxınlarda Xalq Cəbhəsinin başçıları özlərinin siyasi baxımdan pozitiv proqramının həyata keçirilməsindən danışırdılar. Biz mənəviyyatımızdan, dilimizin inkişaf etdirilməsindən söhbət açırıq. Biz unutmuşuq ki, lap bu yaxınlarda biz ekologiyanın, Xəzərin təmizliyinin bir çox başqa məsələlərin qayğısına qalırdıq. Bəs bu gün nə gördük? Sovet hakimiyyətinin silahlı yolla yıxılmasına çağırış.

Bakıdakı mitinqlərdə, respublikanın rayon və şəhərlərində mitinq demokratiyası adı altında vəziyyət gərginləşdirilir, sənaye və dövlət müəssisəsi, təşkilat və idarələri piketlərə məruz qalır, insan ləyaqəti alçaldılır və s. Əgər biz sizinlə, yoldaşlar, belə hesab ediriksə ki, hökumətə psixoloji təzyiq göstərilməsinin məqsədi təhqir, şantaj, hədə-qorxu və s. yolu ilə yalnız partiya, inzibati, sovet orqanları rəhbərlərini istefaya göndərməkdən ibarətdir, onda zənn edirəm ki, biz, sadəcə olaraq, bu günümüzün həqiqi siyasi reallıqlarını təsəvvür edə bilmirik.

Siz yaxşı bilirsiniz ki, yanvarın 13-də Bakıda iğtişaşlar təşkil edildi. Təəssüf ki, Bakının, eləcə də respublikanın, həm partiya, həm sovet, həm də hüquq-mühafizə orqanları öz vəzifələrini tam şəkildə yerinə yetirə bilmədilər. Xalq bir neçə gün ərzində demək olar ki, nəzarətsiz qaldı. Mən ölənlərin, yaralananların sayını, evlərin dağıdılması, yandırılması hallarının miqdarını burada göstərməyəcəyəm. Güman edirəm ki, həmkarım – respublika daxili işlər nazirində bu problemlərin müfəssəl təhlili vardır.

Respublikamızın rəhbərləri bu proseslərin qarşısını qabaqcadan almaq üçün cəhd göstərdilərmi? Göstərdilər. Lakin, yoldaşlar, nəticələr nədir? Təəssüf ki, hər bir iş son nəticəsi ilə qiymətləndirilir. Təəssüf ki, nəticələr təsirli olmadı və heç bir pozitiv şeyə gətirib çıxarmadı. Məhz həmin hadisələrin ərəfəsində, daha dəqiq desək, düz ayın 13-də Bakıdakı çoxminlik mitinqdə Müdafiə Komitəsi struktur baxımından yaradılıb elan edildi. O, Milli Müdafiə Şurası kimi. elan olundu: Elə Lenin meydanında mitinq gedə-gedə paralel şəkildə Bakıda talanlar başlandı.

Yoldaşlar, bu gün ehtimallar çoxdur: bunu hüquq-mühafizə orqanları təşkil edib, bu, DTK-nın, hakimiyyət orqanlarının işidir. Güman edirəm ki, ağıllı, obyektiv qiymət verilməsi vaxtı gəlib çatmışdır. Tarix göstərir ki, qiymət vermək həmişə öz yerini tapır. Mən öz nöqteyi-nəzərimi belə ifadə edə bilərəm ki, öz fəaliyyətinin kəskinliyini Qarabağ probleminin xalqın iradəsi ilə, radikal yolla həll edilməsinə yönəltmiş Milli Müdafiə

Şurasının yaradılması göstərdi ki, bu problem ən başlıca problem deyildir. Qarabağ kartı da ancaq müəyyən konkret məqsədlər üçün – məhz siyasi hakimiyyəti ələ keçirmək üçün oynanılır. Xalq Cəbhəsinin bəzi liderləri də heç bunu gizlətmirlər.

Bakı Şəhər Partiya Komitəsi, Bakı Şəhər İcraiyyə Komitəsi yanvarın 13-də vətəndaşları zorakılığa və s. təhrikedici əməllərin qarşısını qətiyyətlə almağa çağırırdılar. Lakin yuxarıda deyildiyi kimi, bu hadisələrin qarşısını almaq müyəssər olmadı.

Siz bilirsiniz ki, qoşunların yeridilməsi fövqəladə vəziyyət haqqında qərar qəbul edildikdən sonra baş verdi. Mənim fikrimcə, ilk növbədə gəncləri taleyin öhdəsinə buraxan qüvvələrin taktikası səhv idi. Mən sizə açıq deyə bilərəm ki, bu aksiya ərəfəsində mənim Xalq Cəbhəsinin sədri Əbülfəz Əliyevlə söhbətim oldu. Komitənin sədri kimi, ondan xahiş etdim, ona Bakıda baş verən hadisələrin real mənzərəsini açıb göstərdim və onu düşüncəli hərəkət etməyə, bu dağıdıcı prosesləri dayandırmağa çağırdım. Bizim söhbətimiz ayın 19-da səhər vaxtı oldu və bu zaman bır qədər sonra qəbul ediləcək qərarlardan hələ xəbərim yox idi. Belə hesab edirəm ki, bu hərəkətlərə təhrik olunmuş gənclər və dinc əhali bu təbliğatla yoldan çıxarılmışdı. Bunlar günahsız qurbanlar idilər. Güman edirəm ki, tariximizin bu kədərli və faciəli səhifəsinə hələ cavab veriləcəkdir.

**“Azərbaycan”. -** 1994. – 17 yanvar. - N 11. - S. 1-4.

# Azərbaycan KP MK plenumunun 31 mart 1990-cı il tarixli iclasının 19 nömrəli protokolundan çıxarış

## GÜNDƏLİK:

Respublikada ictimai-siyasi vəziyyətin normallaşdırılması ilə əlaqədar partiya təşkilatlarının vəzifələri haqqında. Fövqəladə vəziyyətin tətbiq edilməsi səbəblərinin öyrənilməsi və Azərbaycan KP MK-nın keçmiş birinci katibi Ə. X. Vəzirovun fəaliyyətinin yoxlanılması üzrə Azərbaycan KP MK-nın yanvar (1990-cı il) plenumunun təşkil etdiyi komissiyaların məlumatı.

**Komissiyanın məlumatı ilə MK-nın şöbə müdiri Ə. F. Daşdəmirov çıxış edir:**

- Yoldaşlar! Azərbaycan MK-nın yanvar plenumunun tapşırığına müvafiq olaraq, tərkibinə MK üzvləri və MK üzvlüyünə namizədlər Daşdəmirov, Abbasov, Axundov, Əhmədov, Babayev, Qolovina. Nəsibov, Rzayeva, İsmayılov, Yusifzadə daxil olan komissiya məlum 19-20 yanvar faciəsi günlərində Bakıda fövqəladə vəziyyətin tətbiq edilməsinin şərait və səbəblərinin öyrənilməsinə başlamışdır.

Məruzə etmək istəyirəm ki, komissiya öz vəzifəsini fövqəladə vəziyyətin tətbiqi haqqında qərar qəbul edilməsinin hüquqi əsaslarını təhlil etmək, faciəli hadisələrə qədərki dövrdə yaranmış vəziyyətin siyasi təhlilini vermək yolu ilə yanvar hadisələrini gətirib çıxardan şərait və səbəbləri işıqlandırmaqda görürdü. Lakin qeyd etmək lazımdır ki, hadisələrin miqyası, baş vermiş böhranın dərinliyi, bu hadisələrə cəlb olunmuş qüvvələrin müxtəlifliyinin çoxluğu və böyüklüyü, vəziyyətin mürəkkəbliyi və ziddiyyətliyi son dərəcə yüksək olduğundan bir oturuma qarşıya qoyulmuş vəzifəni yerinə yetirmək qeyri-mümkündür.

Buna görə, mən komissiyanın bütün üzvlərinin rəyini ifadə edərək bugünkü məlumatın ilkin nəticələr kimi qəbul olunmasını xahiş edərdim. Bu iş, təkrar edirəm, davam edilməlidir və əgər plenum lazım bilsə, biz bundan sonra da nəzərdə tutduğumuz proqrama uyğun olaraq öz fəaliyyətimizi davam etdirərik.

Xatırladığınız kimi, yanvarın 20-nə keçən gecə saat 00.20-də Bakı şəhərinə qoşunlar yeridilmişdi. Şəhərin sakinləri fövqəladə vəziyyətin tətbiq olunacağı haqda əvvəlcədən xəbərdar edilməmişdilər. Bu aksiyanın başlanmasından yeddi saat sonra hərbi komissarın məlumatı verildi. Əməliyyatda quru, hərbi-dəniz, hərbi-hava, desant qoşunlarının, habelə DTK-nın, SSRİ Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı qoşunlarının böyük dəstələri iştirak edirdi. Qeyd olubmuş qoşun hissələrinin və birləşmələrinin Bakı şəhərinə girməsi, müəyyən edildiyi kimi, ekstremist ünsürlərin və yaraqlıların tərəfindən təhrik edilmiş əhalilin müəyyən hissəsinin müqavimətinə rast gəldi. Bu da öz növbəsində hərbi qulluqçuları sərt cavab hərəkətlərinə təhrik etdi. Məlum olduğu kimi, yaşayış binaları, səhiyyə müəssisələri güllləbaran edildi. Dinc sakinlər zərər çəkdilər, insanların mənzillərdə, yaşayış binalarının girəcəklərində, avtobuslarda, iş yerlərində öldürülmələri haqda faktlar var. Mən hadisələri təfərrüatı ilə danışmaq istəmirəm. Bu çox acı faktlardır və onlar hamıya məlumdur. Böyük miqdarda adam həlak olub, yaralananlar çoxdur. Bizim şəhər əhli, bakılılar, günahsız adamlar zərər çəkib. Faciəyə səbəb nə oldu?

Baş vermiş hadisədən qaçmaq olardımı və bu hadisəyə görə kim məsuliyyət daşıyır? Bakı faciəsindən əvvəlki vəziyyəti təhlil etdikdə aşağıdakı suallar doğur: fövqəladə vəziyyəti tətbiq etmək haqqında qərarı vermək üçün hansı zəruriyyət və hüquqi əsas var idi? Respublika rəhbərliyinin, Azərbaycan SSR-in səlahiyyətli orqanlarının bu qərarın qəbulunda rolu və iştirakı neçə olmuşdur? Şəhərə qoşun hissələrinin yeridilməsi qanun və təlimatlara, real şəraitə münasibətdə nə dərəcədə düzgün həyata keçirilib? Bu əməliyyatın hazırlanmasına və həyata keçirilməsinə kim cavabdehdir? Dinc əhalinin həlak olmasının qarşısını almaq üçün nə etmək lazım idi?

Bu sualların bir qrupudur. Onunla birbaşa və bilavasitə heç də az prinsipial olmayan digər suallar qrupu bağlıdır. Bakı şəhərində və ümumiyyətlə, respublikada real siyasi durum neçə idi? Yaranmış vəziyyət fövqəladə tədbirlər tələb edirdimi? Hansı proseslər və hadisələr siyasi böhrana, nəinki millətlərarası zəmində, hətta millətin öz daxilində toqquşmalara səbəb oldu? Əlbəttə, başqa suallar da mövcuddur.

Müasir mədəni dövlətdə bu günə kimi qarşılaşdığımız millətlərarası münaqişənin silahlanmasına necə yol verildi?

Ayaz Mütəllibov yoldaşın bugünkü məruzəsində DQMV-də baş vermiş hadisələrin törətdiyi, respublikada siyasi və iqtisadi böhrana səbəb olduğu böhran proseslərinin prinsipial siyasi təhlili verilmiş, partiya, sovet, təsərrüfat və hüquq-mühafizə orqanlarının, ictimai təşkilatların, müxalif qüvvələrin, ekstremistlərin fəaliyyətinə dəqiq siyasi qiymət verilmişdir.

Buna görə bu gün, sizin icazənizlə, biz diqqətimizi məsələnin hüquqi tərəfinə yönəldirik. Komissiya hər şeydən əvvəl dövlətin ərazisində və onun ayrı-ayrı yerlərində müstəsna tədbir kimi tətbiq olunan fövqəladə vəziyyətin hüquqi mahiyyətini aydınlaşdırmağı vacib bildi. Sovet qanunvericiliyində fövqəladə vəziyyət rejiminin elan olunması, tətbiq edilməsi, işləməsini nizamlayan heç bir ittifaq və respublika hüquqi aktı aşkar edilmədi. Yalnız ölkədə, nəqliyyatda hərbi vəziyyətin tətbiqi və 1941-1945-ci illər Böyük Vətən müharibəsi dövründə Moskvada mühasirə vəziyyəti haqqında bir neçə akt və fərman mövcuddur. Bakı hadisələri fövqəladə vəziyyət rejiminin məfkurəvi cəhətinə bağlı bütün suallar kompleksini nizamlayan konstitusiyaya əsaslanmış qanunvericilik normalarının olmaması hansı faciəli nəticəyə gətirib çıxardığını göstərir. Sovet Konstitusiya quruculuğu tarixində ilk dəfə ittifaq konstitusiyası fövqəladə vəziyyəti 1988-ci ilin dekabr ayında SSRİ Ali Sovetinin növbədənkənar XII sessiyasında qəbul olunmuş Konstitusiyaya dəyişikliklər və əlavələr edilməsi haqqında qanunla əsaslandırdı. SSRİ Ali Soveti Rəyasət Heyətinin səlahiyyətini müəyyən edən 119-cu maddənin 14-cü bəndində göstərilir ki, o, SSRİ-nin müdafiəsi, vətəndaşlarının təhlükəsizliyi naminə ölkənin bütün ərazisində və ya onun ayrı-ayrı yerlərində bu məsələni müvafiq ittifaq respublikasının Ali Sovetinin Rəyasət Heyəti ilə mütləq şəkildə birgə baxılması şərti ilə hərbi və ya fövqəladə vəziyyət elan etmək səlahiyyətindədir.

Biz bilirik ki, Konstitusiyanın bu tələbi SSRİ Ali Soveti Rəyasət Heyətinin DQMV-də və respublikanın digər rayonlarında fövqəladə vəziyyətin elan olunması ilə əlaqədar 15 yanvar 1990-cı il tarixli fərmanın verildiyi zaman yerinə yetirilmişdi. Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq olunması haqqında yanvarın 20-də elan olurmuş və 15 yanvar 1990-cı il tarixli fərmanın Bakının ərazisinə şamil edən SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar 1990-cı il tarixli fərmanla bağlı məsələ isə tamamilə başqa cürdür. Fərmanın verilməsi düzgün əsaslandırılmışdır.

Bu, şəhərdə vəziyyətin kəskinləşməsi, cinayətkar ekstremist qüvvələrin zorakılıq cəhdləri, kütləvi iğtişaşların təşkil edilməsi ilə bağlı olmuş və əslində, vətəndaşların təhlükəsizliyinin müdafiəsi üçün lazım olmuşdur. Əvvəlkilərdə olduğu kimi, bu fərmanda da SSRİ Ali Sovetinin Rəyasət Heyəti göstərirdi ki, o, 119-cu maddənin 19-cu bəndini əsas götürmüşdür. Belə ki, həmin bəndə görə fövqəladə vəziyyətin tətbiq edilməsinin zəruri şərti kimi bu məsələnin müvafiq respublikanın Ali Sovetinin Rəyasət Heyəti ilə, indiki halda isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti ilə birlikdə baxılması tələb olunur. Bununla belə, respublikanın Ali Soveti Rəyasət Heyətinin sədri E. Qafarovanın bəyanatından da aydın olmuşdur ki, Bakıda fövqəladə vəziyyətin tətbiqi ilə əlaqədar Rəyasət Heyətinin heç bir razılığı olmamışdır.

Xüsusilə qeyd etmək lazımdır ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin DQMV-də fövqəladə vəziyyətin tətbiqi haqqında 15 yanvar tarixli fərmanında Bakı, Gəncə və başqa yaşayış məntəqələrində komendant saatının təyin olunması məsələsinə baxılması Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə təklif olunurdu. Beləliklə, Bakıda fövqəladə vəziyyətin tətbiq olunması SSRİ Konstitusiyasının, Azərbaycan SSR Konstitusiyasının, Azərbaycan SSR-in suverenliyi haqqında Konstitusiya qanununun açıq şəkildə pozulmasıdır.

Bilavasitə fövqəladə vəziyyətin və komendant saatının tətbiqi zamanı da kobud pozuntulara yol verilmişdir. Deyildiyi kimi, fövqəladə vəziyyətin və komendant saatının tətbiqi haqqında əhaliyə tədbirlər həyata keçirilməyə başlandıqdan sonra məlumat verilmişdir. Nəticədə əhali arasında izahat və xəbərdarlıq işləri aparmaq mümkün olmamışdır.

Bu, sonrakı faciəli hadisələrdə ən mənfi rol oynadı. Məlum olduğu kimi, Bakıda bundan əvvəl bir dəfə fövqəladə vəziyyət və komendant saatı tətbiq olunmuşdu. Lakin bu respublika Ali Soveti Rəyasət Heyətinin 1988-ci ilin noyabr ayında əhaliyə müraciətindən sonra həyata keçirilmişdi. Müəyyən iş aparılmış, əhali xüsusi vəziyyətin tətbiq edilmə vaxtı haqqında xəbərdar edilmişdi. Xüsusi vəziyyətlə əlaqədar olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasının konkret bəndləri, qoşun və hüquq-mühafizə orqanlarının süqutları, habelə qoyulmuş qadağanları pozmağa görə sanksiyalar müəyyən edilmişdi. Bakının partiya, sovet və hüquq-mühafizə orqanlarının hərbi hakimiyyətlə sıx əməkdaşlığı o zaman böyük müsbət rol oynadı. Təəssüf ki, bu dəfə belə edilməmişdi və bu faciənin ən əsas səbəblərindən biri oldu.

Komissiya hesab edir ki, İttifaq respublikasının suverenliyi, onun ölkənin əsas qanununda əks olunmuş Konstitusiya hüquqlarına bütün hallarda hörmət edilməlidir. Biz buna ölkənin dövlət rəhbərliyi tərəfindən səlahiyyətlərini aşması kimi baxırıq. Fövqəladə vəziyyətin tətbiqi ilə bağlı Bakıda baş vermiş hadisələr bir daha göstərdi ki, hətta ən ali məqsədə qanunu pozmaq yolu ilə nail olmaq olmaz. Haqlı olaraq belə bir sual doğur — qoşunların əməlləri o anın real şəraitinə uyğun gəlirmi? Xatırlatmaq istəyirik ki, 9 aprel 1989-cu ildə Tbilisidə baş vermiş hadisələri təhqiq edən komissiyanın bəyanatına görə hətta əsgəri bellərin dinc əhaliyə qarşı tətbiq edilməsi pislənmiş və yolverilməz elan edilmişdir. Bakıda isə ağır hərbi texnika və odlu silahlar tətbiq olunmuşdu. Hər bir dövlətdə, o cümlədən, bizim ölkədə, güman edirik, xüsusi vəsaitlərin siyahısı və lazım olan hallarda onların tətbiqi qaydalarını müəyyənləşdirən müvafiq təlimatlar, tövsiyələr mövcuddur. Hərbi hissələrin və birləşmələrin, tanklar, PDM-lər, ZTR-lər, dağıdıcı və ağırlıq mərkəzi dəyişdirilmiş güllələr atan avtomatik odlu

silahların tətbiq edilməsi ciddi suallar doğurur. Belə güllə yaralarının müalicəsi üçün müvafiq təcrübə, avadanlıq, dava-dərman vacibdir. Məlumdur ki, bizim belə imkanlarımız yox idi.

Bu hərəkətlər bizim fikrimizcə insan hüquqlarının, bir çox beynəlxalq hüquqi aktların kobud şəkildə pozulması kimi qiymətləndirilməlidir.

Bakı şəhərində fövqəladə vəziyyətin tətbiqi nə şəkildə və hansı əməllərlə müşayiət olunduğuna qiymət verdikdə komissiyanın rəyinə görə bir halda ki, belə bir məsul qərar qəbul olunmuşdu, mümkün qədər qan tökülməsini istisna edib ağır döyüş texnikası və avtomatik odlu silah tətbiq edən qoşunun hərəkəti əsnasında əhali ilə toqquşmalardan qaçmaqla qanuna tam şəkildə əməl edilməsi vacib idi. Komissiya Azərbaycan KP MK plenumuna tövsiyə edir ki, hərbiçilər, hüquqşünaslar sırasından səlahiyyətli şəxslərə toqquşmalara yol verməmək üçün bütün imkanlardan istifadə olunub-olunmamasını əsaslı şəkildə öyrənməyi tapşırsın.

Biz belə hesab edirik ki, fövqəladə vəziyyət nə qədər vahiməli statusa malik olsa da, günahsız qurbanların verilməsinə bəraət qazandıra bilməz. Bundan çıxış edərək biz öz suallarımızı  qoyuruq.

Deyilənlərdən belə nəticəyə gəlmək olur ki, Bakıya qoşun yeridilməsi və şəhərdə fövqəladə vəziyyətin elan edilməsi zamanı SSRİ Konstitusiyası, eləcə də Azərbaycan Konstitusiyası kobud şəkildə pozulmuşdur. DİN qoşunları nizamnamə qayda-qanunlarına görə yalnız müdafiə zamanı işlədilə biləcək silahlardan istifadə etmişlər. Təkrar edirəm ki, bütün bu məsələlər nüfuzlu və səlahiyyətli dairələr tərəfindən araşdırılmalıdır.

Komissiya dəqiqləşdirə bilməmişdir ki, Bakıda fövqəladə vəziyyətin tətbiqinə kimlər və nə vaxt təşəbbüs göstərmişdir. Bu qərarın qəbul edilməsinə şəxsən kim razılıq vermişdir.

Azərbaycan KP MK bürosunun sənədlərinin, eləcə də digər rəsmi sənədlərin təhlili göstərir ki, Bakıda fövqəladə vəziyyətin elanı ilə əlaqədar Azərbaycan rəhbərliyi məsələ qaldırmamışdır. Komissiya, həmçinin, MK bürosunun üzvləri və üzvlüyə namizədlərindən E. Qafarova, A. Mütəllibov, H. Həsənov, T. Orucov, K.Bağırovun əvvəlki plenumunda bu aktın qəbul edilməsində iştirak etməmələri haqqında bəyanatlarını da nəzərə almışdır. Bu hadisələrdə Azərbaycan KP MK-nın sabiq birinci katibi Ə.Vəzirovun rolunu müəyyənləşdirmək mümkün olmamışdır.

Hesab edirəm ki, SSRİ Ali Sovetinin 5 mart 1990-cı il tarixli Ermənistan SSR və Azərbaycan SSR-də vəziyyət haqqında qərarı ilə prokurorluq və Təhlükəsizlik Komitəsinə respublikamızın hüquq-mühafizə orqanları ilə birgə Azərbaycan SSR Ali Sovetinin komissiyasının gəldiyi nəticələri nəzərə almaqla, 1990-cı ilin yanvarında baş vermiş hadisələri təhqiq etmək tapşırılmışdı. Bizim fikrimizə görə tapşırıq qoşunun Bakıda törətdiklərinə də aid edilir. Komissiya habelə hesab edir ki, bizim məlumatda toxunulan bir sıra məsələlər müvafiq səlahiyyətli orqanlar tərəfindən bundan sonra da tədqiq edilməlidir.

Bununla əlaqədar olaraq, biz Azərbaycan SSR Alİ Sovetinə, onun yaratdığı komissiyaya fövqəladə vəziyyətin tətbiq edilməsinin bütün aspektlərini, onların faciəli nəticələrinin öyrənilməsini və əhaliyə çatdırılmasını tövsiyə etməyi təklif edirik.

Kommunistlərə, respublika Nazirlər Kabinetinin rəhbərlərinə, DTK-ya, DİN-ə, Azərbaycan SSR hərbi komissarına mövcud idarə təlimatları və xüsusi vasitə əmrlərinə müvafiq şəkildə fövqəladə vəziyyətin tətbiqi

zamanı istifadə olunan qaydalar haqqında məsələnin bütün aspektlərini və ağır hərbi texnikanın, döyüş silahlarının tətbiqinin qanunauyğunluğunu öyrənməyi təklif etməyi məsləhət görürük. Düşünürük ki, bu məsələləri mötəbər səviyyədə öyrəndikdə yanvarda Bakıda baş vermiş hadisələrə tam və daha ətraflı qiymət verə bilərik.

Burada biz mərkəzi fövqəladə vəziyyəti tətbiq etməyə vadar edən səbəblər məsələsini qaldırmırıq.

Azərbaycan KP MK-nın birinci katibi A. Mütəllibov yoldaşın məruzəsində bu məsələlər işıqlandırılıb, siyasi qiymətlər verilib, partiya, sovet, hüquq-mühafizə, təsərrüfat orqanlarının, müxalif qüvvələrin, onların silahlı hissələrinin məsuliyyəti müəyyənləşdirilib. Bu haqda iclasın əvvəlində qeyd olunmuşdu. Burada Dağlıq Qarabağda olan bütün regionda erməni millətçiləri tərəfindən qızışdırılan millətlərarası münaqişənin hansı fəlakətlərə səbəb olduğunu da qeyd etmək lazımdır. Bu nəticələrə istinad edərək komissiya fövqəladə vəziyyətin tətbiq edilməsi səbəblərini aydınlaşdıran məsələləri tam əhatə etmək məqsədilə öz işini davam etdirməyə hazırdır.

**Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (31 mart 1990-cı il tarixli) plenumunun qərarı**

**Azərbaycan KP MK komissiyasının**
**«19-20 yanvar 1990-cı il tarixdə Bakı şəhərində**
**fövqəladə vəziyyətin tətbiq olunmasının səbəbləri**
**və şəraiti haqqında» məlumatı barəsində**

1. Azərbaycan KP MK-nın komissiyasının gəldiyi nəticələrlə razılaşmaq.
2. Nəzərə alınsın ki, bu məsələnin təhqiqi davam etdirilir.

**“Azərbaycan”.** - 1994. – 27 yanvar. - № 18 - S. 1-4.

## Azərbaycan KP MK-nın 2 iyun 1990-cı il tarixli plenumundan çıxarış

Gündəliyə salınan məsələlərdən biri budur:

«Azərbaycan KP MK-nın 1990-cı ilin yanvarında keçirilmiş plenumunda Ə.X.Vəzirovun Azərbaycan KP MK-nın birinci katibi işlədiyi müddətdəki fəaliyyətinin yoxlanması üçün yaradılmış komissiyanın işinin yekunları haqqında».

**Komissiyanın sədri yoldaş R. V. Axundovun məlumatından:**

...- Yoldaş Ə.X.Vəzirov Azərbaycanın partiya təşkilatına respublika üçün çətin vaxtda, 1988-ci ilin mayında rəhbərlik etməyə başladı. Lakin o, vəziyyətin mürəkkəbliyini qiymətləndirə bilmədi, Azərbaycan KP MK-nın siyasi fəaliyyətinin tam dəqiq xəttini hazırlaya bilmədi. Partiya təşkilatına, geniş ictimaiyyətə respublika həyatının yenidən qurulması üçün, onu yaranmış ağır vəziyyətdən çıxarmaq üçün real konkret iş proqramı təklif edilmədi. Yoldaş. Ə.X.Vəzirovun təşəbbüsü ilə qəbul edilmiş qərarların çoxu qeyri-ardıcıl, reallıqdan uzaq xarakteri daşıyırdı, real vəziyyəti, ictimai rəyi nəzərə almırdı və təsiredici olmadı.

Yoldaş Vəzirovun Dağlıq Qarabağ Muxtar Vilayətindəki hadisələrlə bağlı yeritdiyi siyasətinin respublikada böhranlı hadisələrin dərinləşməsi üçün xüsusilə ciddi nəticələri oldu.

Yoldaş Vəzirov bu məsələdə lazımi prinsipial mövqe tutmadı, birtərəfli güzəştlər taktikasını seçdi ki, bu da DQMV-ni Azərbaycanın tərkibindən çıxarmaq üçün yalnız erməni tərəfinin bərəkətlərinin fəallaşmasına kömək etdi.

O, DQMV-ni mərkəzdən idarə etmək ideyasının respublikada populyar olmadığını bilə-bilə faktiki olaraq KP MK Bürosunun və Ali Sovet prezidiumunun üzvlərini aldadaraq DQMV-nin Xüsusi İdarə Komitəsinin yaradılmasına razılıq verdi.

Yoldaş Ə.X.Vəzirov Moskvadan SSRİ Ali Soveti prezidiumunun 1989-cu il yanvarın 12-də qəbul olunmuş «Azərbaycan SSR DQMV-də xüsusi idarə formasının tətbiq edilməsi — DQMV-nin Xüsusi İdarə Komitəsinin yaradılması haqqında» fərmanla qayıdaraq onun mətbuatda dərc edilməsini gözləmədən təcili olaraq yanvarın 12-də axşam Bakı şəhərinin partiya aktivinin yığıncağını keçirdi. Yığıncaq fərmanın qəbul edilməsini bəyəndi. Aktiv mətbuatda nədənsə, respublika aktivi elan edildi, Azərbaycan SSR Ali Soveti prezidiumunun 1989-cu il 13 yanvar tarixli qərarı isə, əslində, artıq sadəcə formal xarakter daşıyırdı.

Sonralar o, muxtar vilayət probleminin həllində respublika orqanlarının fəal iştirakının yığışdırılması xəttini yeritdi. Azərbaycan KP MK-nın 9 mart 1989-cu il tarixli bürosunda o, hissləri cilovlamaq zərurəti pərdəsi altında bir çox rəhbər və nazirimizin olduqca aşağı siyasi vəziyyətinə işarə edərək dedi: «Biz mətbuatda və sairədə də DQMV-nı unutmalı və işləməliyik. Əgər bilsəm ki, bir nazir müavini belə və ya nazir DQMV məsələləri ilə məşğul olur, mən bildirirəm ki, biz o naziri işdən çıxararıq». Bu qəbildən olan göstərişlər, habelə, SSRİ Nazirlər Sovetinin «Azərbaycan SSR DQMV iqtisadiyyatının xüsusi idarə formasının qüvvədə olduğu dövrdə idarəsi

haqqında» qəbul etdiyi qərar respublikanın nazirlik və idarələri üzərindən DQMV-də onların səlahiyyətinə daxil olan məsələlərin həlli üçün məsuliyyəti götürdü.

Lakin sonrakı hadisələr belə mövqenin uzaqgörən olmadığını və səhv olduğunu göstərdi. DQMV-nin iqtisadiyyatı faktiki olaraq respublika orqanlarının idarəsi altından çıxarıldı, vilayətlə əlaqələr bütün səviyyələrdə kəsildi, onun siyasi strukturunda isə millətçi qüvvələr alternativ, qeyri konstitusiya hakimiyyət orqanı — DQMV Milli Şurasını yaratdılar.

Nəticədə respublikadakı gərginlik son həddə çatdı, millətlərarası qarşıdurma dərinləşdi və gücləndi, iş silahlı toqquşmalara gəlib çatdı.

Deyilənlər göstərir ki, yoldaş Ə.X.Vəzirov kommunistlərin və bütün Azərbaycan xalqının etimadını doğrultmadı, onun apardığı siyasət tamamilə səhv, verdiyi vədlər boş oldu. Respublikadakı vəziyyət təhlükəli həddə çatdı.

Lakin yoldaş Ə.X.Vəzirov yaxınlaşan təhlükəli böhran şəraitində yalan məlumat verməklə ölkə ictimaiyyətini çaşdırır, respublikada öz fəaliyyəti haqqında yaxşı rəy yaratmağa çalışırdı.

Məsələn, Sov.İKP MK-nın aprel (1989-cu il) plenumunda o deyirdi: «Böhrandan çıxmaq, kütlənin etibarını qaytarmaq, onları öz tərəfimizə çəkməyə... konkret sosial-iqtisadi məsələlərin aktiv həlli, beynəlmiləl mövqeyin və partiyanın, hökumətin ümumi maraqlarının saxlanılması imkan verdi.

Camaat bizim arxamızca gəldi. Buna nümunə SSRİ Xalq deputatlarının seçkiləridir. Səsvermədə 98,5 faiz iştirak etmişdir».

Burada istək həqiqət əvəzinə verilmişdir. Respublikada böhran vəziyyəti daha da kəskinləşirdi. Kütlənin partiyaya inamı daha da azalırdı. Sosial-iqtisadi problemlərin həlli iflasa uğramışdı. MK-nın komissiyasında faktlar var ki, bir çox adam, əsasən pis şəraitdə yaşayanlar səsvermədən imtina etdikdə təzyiqlər göstərilmişdir, bir çox yerlərdə səsvermənin nəticələrini saxtalaşdırmışlar.

Bunlara baxmayaraq, yoldaş Ə.X.Vəzirov utanmadan partiya mətbuatını, Sov.İKP MK-nın şöbələrini respublikada seçkilərin keçirilməsi təcrübəsini yaymağa çağırırdı.

Bunlar hamısı partiya təşkilatlarına inamı azaldır, yoldaş Ə.X.Vəzirovu nüfuzdan salır, ictimaiyyətin onun respublikanı böhran vəziyyətindən çıxara, köklü dəyişikliklər etməyə qadir olmadığını təsdiqləyirdi.

Yoldaş Ə.X.Vəzirovun iş üslubu respublikadakı ictimai-siyasi vəziyyətin reallığını əks etdirmir, ictimai inkişafda sürətlə baş verən dəyişikliklərlə təzad təşkil edir, yeni siyasi fikrə uyğun gəlmirdi. Qərarların qəbul edilməsində volyuntarizm, sözlə iş arasında ayrılıq, başqa fikri eşitməmək, ünvanına deyilən tənqidi qəbul etməmək, dezinformasiyaya meyllilik, siyasətə və insanlara münasibətdə əliəyrilik Azərbaycan KP MK-nın birinci katibi yoldaş Ə.X.Vəzirovda əsas iş üslubu idi.

Kollektiv rəhbərlik prinsipi pozulurdu. MK-nın bir çox büro iclasları bu və ya digər üzvlər çağırılmadan dar heyətlə aparılırdı. Daim iclaslara dəvət olunan MK-nın üzvləri və namizədləri, respublika kütləvi informasiya vasitələrinin rəhbərləri, mərkəzi qəzetlərin xüsusi müxbirləri kadrlaşdırılmışdı.

1989-cu ilin iyunundan bəri Azərbaycan KP MK-nın plenumları çağırılmır, prinsipial xarakterli bir çox məsələlər dar heyətli iclas və müşavirələrdə müzakirə edilirdi. İştirakçılar elə seçilirdi ki, MK-nın birinci katibinin ünvanına tənqid imkanı olmasın. İş o yerə çatırdı ki, ictimai-siyasi vəziyyət buna heç bir əsas vermədiyi halda, MK-nın plenumu MK-nın bürosunun fəaliyyətini bəyənirdi.

Kadrların əvvəlcə müzakirə və ya sorğu keçirilmədən təsdiq edilməsi MK nın bürosunun iş üslubuna çevrilmişdi. Hətta KP MK-nın şöbə müdirinin təyin edilməsini bir sıra büro üzvləri təsdiqdən sonra bilirdilər.

Vəzifəyə təyin vaxtı şəxsin əvvəlcə nəyə görə işdən çıxarılması və ya işdən çıxarılan zaman nöqsanların düzgünlüyü faktları onu qətiyyən maraqlanmırdı.

Respublika partiya təşkilatının rəhbəri kimi yoldaş Ə.X.Vəzirovun kadr, partiya təşkilatı və siyasi-tərbiyə işlərindəki böyük səhvləri ölkədəki demokratik dəyişikliklər, aşkarlıq şəraitində respublikada yenidənqurma proseslərinin qarşısını alırdı.

DQMV problemi, gündəlik məsələlərin həlli, korrupsiya, yerliçilik, vəzifədən sui-istifadə halları, bürokratizmlə mübarizədə konkret əməlləri yoldaş Ə.X.Vəzirovun bir çox bəyanatları ilə uyğun gəlmirdi.

Sov.İKP MK-nın katibi yoldaş Girenkonun 1990-cı ilin yanvarında dediyi kimi, yenidənqurma respublikada öz yerini tapmamışdır. İnzibati amirənəlik üslubu, idarəetmə orqanlarının kəskin bürokratizmi eynilə qalmışdır.

Azərbaycan KP MK-nın başçısı kimi yoldaş Ə. X. Vəzirovun fəaliyyətindən kütləvi narazılıq, respublika partiya komitələri və təşkilatlarının xalq kütlələri arasında nüfuzdan düşməsi qeyri-formalların fəallaşması üçün imkanlar yaradırdı. Onlar Azərbaycan Xalq Cəbhəsi kimi birləşərək, rəsmi orqanlara alternativ olaraq, özlərinin ərazi və istehsal strukturlarını yaradaraq kütlələr arasında nüfuz qazanmağa və respublikanın ictimai-siyasi həyatına güclü təsir göstərməyə başladılar.

Yenidənqurma və DQMV böhranı ilə əlaqədar əhalinin siyasiləşdirilməsini yoldaş Ə.X.Vəzirov düzgün qiymətləndirə bilməmişdir. Qeyri-formallarla vaxtında konstruktiv dialoq yaratmaq əvəzinə, o onları özündən itələmək siyasətinə keçdi. Bu da ona gətirdi ki, ziyalıların bir çox hissəsi hərəkatdan kənarlaşdı, onların yerini radikallar, sonra isə ekstremist elementlər tutdu.

Sonralar AXC ilə hesablaşmaq lazım olduqda o, onların fəaliyyətinə prinsipial yanaşma illüziyası yaradır, işdə isə heç bir real - aktiv hərəkət etmir, Xalq Cəbhəsinin bir sıra axınlarının liderləri ilə görüşür və onlarla səmərəsiz söhbətlər aparırdı. Bu da ona gətirirdi ki, mövqelər verilirdi və hakimiyyət boşluğunu AXC strukturları doldururdu.

Bakı şəhərində baş vermiş faciəli hadisələrin araşdırılması və ona siyasi qiymət verilməsi Azərbaycan KP MK-nın Ə.F.Daşdəmirovun başçılıq etdiyi komissiyanın işi olduğunu nəzərə alaraq, yalnız yoldaş Ə.X.Vəzirovun şəxsiyyəti ilə əlaqədar bir sıra momentlərə diqqət yetirməyi zəruri sayırıq.

1989-cu ilin noyabrından 1990-cı ilin yanvarına kimi yoldaş Ə.X.Vəzirov təkbaşına siyasi rəhbərliyi həyata keçirmiş və öz məsuliyyətsiz hərəkətləri ilə vəziyyəti daha da kəskinləşdirmişdir. Cəlilabad rayonunda 1989-cu il dekabrın 28-dən 29-a keçən gecə güc işlətmək qərarına təkbaşına gəlməsi Ali Sovetin sessiyasının işini

pozmuşdur. 31 dekabrda sərhəd qurğularının dağıdılması və sərhəddə digər qanunsuz əməllər, Bakı şəhərindəki yanvar hadisələrinin qarşısının alınmaması respublikanı, Bakını faciəli həddə gətirmiş və faciə ilə nəticələnmişdir.

Belə bir məsuliyyətli vaxtda yoldaş Ə.X.Vəzirov siyasi rəhbər kimi vəziyyətə və onun yaranmasındakı şəxsi roluna düzgün qiymət vermək və respublikadakı vəziyyəti sabitləşdirməyə qadir olmadığını boynuna almağa özündə lazımi partiya keyfiyyətləri tapmadı. 1990-cı il yanvarın 12-də KP MK-nın Bürosunda ona istefa vermək təklif olunanda, o, bunu təhqir kimi qəbul etdi.

Bakıya qoşun yeridiləcəyini bilə-bilə yoldaş Ə.X.Vəzirov bunu MK-nın bir çox büro üzvlərindən gizlətmiş və qoşun yeridilməsinə bir sutka qalmış televiziya ilə çıxış təşkil etmişdir ki, qoşun yeridilməyəcək, hətta komendant saatı olmayacaqdır. Yanvarın 19-da MK katibləri ilə haradasa birtərəfli əlaqə saxlayaraq qoşun yeridilməsi barədə heç nə deməmişdir. Beləliklə, küçələrdən camaatı aparmaq mümkün olmamış və onların bir çoxu üçün faciə labüdləşmişdir.

Bakı şəhər rəhbərliyi də özünü eynilə aparmışdır. Şəhər partiya komitəsinin birinci katibi yoldaş M. R. Məmmədov və Bakı İcraiyyə Komitəsinin sədri yoldaş N. Qaraqaşlı yanvarın 19-da evdə istirahət etmiş, partiya və sovet orqanlarının bir çoxu bu saatlarda şəhər rəhbərliyindən kənarlaşmışdı.

Qeyd etmək lazımdır ki, yoldaş Ə.X.Vəzirovun siyasi və mənəvi düşkünləşməsində KP MK-nın büro üzvləri də günahkardırlar.

Azərbaycan KP MK aparatının partiya təşkilatı işindəki ciddi siyasi səhvlər, partiya rəhbərliyi prinsiplərinin pozulması və vəzifədən sui-istifadəyə görə, respublikanı faciə ilə nəticələnmiş böhran vəziyyətinə gətirdiyi üçün yoldaş Ə.X.Vəzirovu Sov.İKP üzvlüyündən xaric etmişdir.

Komissiya hesab edir ki, yoldaş Ə.X.Vəzirovun Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində fəaliyyətinə KP MK-nın plenumu tərəfindən verilən prinsipial qiymət, baş vermişlərdən düzgün nəticə çıxarmağı, respublika partiya təşkilatına edilən ağır siyasi və mənəvi zərbəni qaldırmağa, vəziyyətin normallaşmasına, Azərbaycan KP-nın nüfuzunun bərpasına, bütün sağlam qüvvələrin birləşməsinə gətirəcək.

* * *

**A. N. Mütəllibov:** Söz verilir İ. Ə. İbrahimov yoldaşa.

**İ. Ə. İbrahimov – Azərbaycan KP MK üzvü, fərdi təqaüdçü:**

- Yoldaşlar, biz yekdilik ki, Vəzirov siyasi və əməli xarakterli ciddi səhvlərə, ciddi uğursuzluqlara yol vermişdir və o, çox ciddi cəzaya layiqdir.

1952-ci ildə onun partiyaya girməsinə mən zəmanət vermişəm. Onun həyat yoluna nəzər salınarsa, demək olar ki, prinsip etibarilə Vəzirov yox, bizi nəzərə almayaraq, onu Azərbaycan Kompartiyası MK-nın birinci katibi kimi namizədliyini irəli sürən kəs təqsirkardır. Onun ümumi hazırlığı ona respublika partiya təşkilatına başçılıq etməyə imkan vermədi, Bu da belə səhvlərə gətirib çıxardı. Yoldaşlar, biz qurultaya gedirik, MK-nın yanvar və mart plenumlarından sonra respublikada çox əlverişli şərait yaranır. Biz isə qurultay ərəfəsində bu məsələni

müzakirə etməyə başlayırıq. Olduqca çoxlu faktlar, familiyalar, xeyli cəhətlər vardır. Mən qorxuram ki, bu vəziyyət qurultayın tribunasına keçə bilər. Mən 1952-ci ildən partiyamızın qurultaylarının iştirakçısıyam və təkrar edirəm ki, mən çox ehtiyat edirəm.

Ona görə də mən təklif edirəm ki, bu məsələ üzrə müzakirələr açılmasın, hisslərə qapılmaq olmasın və müzakirə etmədən qərar qəbul olunsun. Yoxsa biz qurultayın keçirilməsini korlayarıq. (Alqışlar).

**A. N. Mütəllibov:** – İsmayıl Əliyeviçin təklifini səsə qoymaq lazımdır. Arayış vermək olar.

Yoldaşlar! Biz hər balda müzakirə edilən ana ağılla yanaşmalıyıq. Yanvarda yaratdığımız komissiyanın materiallarını bu gün müzakirə etdiyimiz şərait fərqlidir, o zaman hamımız şok vəziyyətində idik, həyəcan keçirirdik və təbii ki, bütün baş verən hadisələrə; özümüzə də, Vəzirova da, büro üzvlərinə də münasibət başqa idi. O dövrü başa düşmək lazımdır. Bu gün isə biz bir qədər fərqli dövrdə yaşayırıq.

Mən İsmayıl Əliyeviçin dedikləri ilə həmrəyəm. O haqlıdır ki, biz qurultaya ümumi platforma ilə, birləşmə ilə getməliyik, çünki qarşıda çox böyük iş vardır. Lakin, İsmayıl Əliyeviç, bununla yanaşı, yəqin ki, MK üzvlərinin burada eşitdikləri barədə, yəni Axundov yoldaşın başçılıq etdiyi komissiyanın materialları barədə müəyyən düşüncələri vardır və təbiidir ki, MK üzvlərinin bu barədə nə isə demək istəyi vardır. Ona görə də biz bir qədər çətin vəziyyətdəyik.

Odur ki, indi bəzi yoldaşlara çox qısa, 10 dəqiqəyə qədər olsa da, öz fikirlərini demək imkanı vermək bizim üçün zəruri görünür və biz bir neçə çıxışdan sonra bu məsələni həll edərik.

Gəlin biz belə razılaşaq. Siz bilirsiniz ki, Azərbaycan KP MK-nın ilk partiya təşkilatı yoldaş Vəzirovu Sov.İKP sıralarından xaric etmişdir. Bu fakt hamıya məlumdur. Lakin məsələni qəti surətdə həll etmək ilk partiya təşkilatının deyil, MK plenumunun səlahiyyətidir.

Buradakı çıxışlarda bəzi motivlər səsləndi, mən onlar faqqında bir daha xatırlatmaq istəyirəm. Onlar əsasən, bundan ibarət idi ki, Azərbaycan partiya təşkilatının tarixində olduqca çox dramatik səhifələr vardır və biz bu müddət ərzində işləmiş birinci katiblərdən heç birini demək olar ki, ləkələnməmiş qoymamışıq. Bu bizim tariximizdir. Əlbəttə, belə hesab edirəm ki, heç bir dövlətdə heç bir dövlət, partiya xadimi işində səhvsiz, xətasız olmamışdır və ola da bilməz. Əsas odur ki, bu səhvlərə münasibəti nəzərə alaq, səhvlərin nə qədər dərin olduğunu və haraya gətirib çıxardığını müəyyən edək. Məsələn, əgər yoldaş Vəzirovdan danışırıqsa, mən büro üzvlərində yaranmış o rəyə qoşuluram ki, bu adam əsl partiyaçı xarakteri göstərməmişdir, ilk növbədə isə adamlara qulaq asa bilməmişdir. Bundan əlavə, hətta qulaq asarkən adamların rəyi ilə çox vaxt razılaşmır, daha doğrusu, necə qərara gəlibsə, işi elə də yeridirdi. Bax, mən qərara gəlmişəm, artıq heç bir söhbət ola bilməz.

Bu, heç bir rəhbərin bəzəyi deyildir. Mən güman edirəm ki, partiya təşkilatımızda adama öz sözünü demək imkanı verməmək, nəyin onu narahat etdiyini anlamağa cəhd göstərməmək üslubunun kökünü kəsmək lazımdır. Əgər hər yerdə belə olsaydı, onda elə həmin Vəzirovun da buraxdığı səhvlər baş verməzdi.

Digər tərəfdən, demək istəyirəm ki, yoldaş Vəzirovun başına gələnlərə görə bizim, prezidium stolu arxasında oturanların üzərinə böyük məsuliyyət düşür. Zənn edirəm ki, bu, burada oturan bütün yoldaşların fikridir. Hər

birimiz məsuliyyət daşıyırıq və Vəzirova tətbiq edilən hər hansı cəza tədbiri eyni dərəcədə MK büro üzvlərinin də üzərinə düşür.

Biz bu barədə mart plenumunda partiya prinsipiallığı ilə bildirməkdən çəkinmədik, bu barədə hələ uzun müddət danışacağıq, çünki respublikamızda olduqca ciddi işlər baş vermişdir. Eyni zamanda bu qəbildən olan müzakirələr bizə nəticələr çıxarmağı öyrədir. Mərkəzi Komitənin müdrikliyi, həyat təcrübəsi öyrədir ki, bütün olub-keçənləri arxada qoymaq, nəticələr çıxarmaq və irəli getmək lazımdır və gələcəkdə partiya təşkilatımızı, hər birimizi ləkələyən heç bir şeyə yol verməmək lazımdır. Zənn edirəm ki, bu fikir hörmətli Mirzə Əjdəroviçin çıxışında çox uğurla qeyd edildi. Biz ona inanmalıyıq, çünki o, təqdir olunmağa layiq bir həyat keçmişdir və yəqin ki, bizdən də çox necə deyərlər narahatlıq keçirmişdir və bilir. Diqqətinizin məhz bu təklif üzərində dayanmasını istəyirəm. Deməli, MK-nın partiya təşkilatının təklifini diqqətinizə çatdırdım. Bununla yanaşı Mirzə Əjdəroviçin də təklifi səsləndi ki, yoldaş Vəzirovun öz məktubunda səhvlərini etiraf etməsini nəzərə alaraq partiya tənbehi ilə kifayətlənmək lazımdır. Halbuki mən şəxsən həmin məktubu, açığını deyim, özümə münasibətdə daha sərt ifadələrlə yazardım. Mən baş vermiş hadisəyə görə öz məsuliyyətimi açıq-aydın etiraf edərdim, məktubda isə prinsipsizlik ünsürü vardır. Bu da xarakter təzahürüdür. Mən belə hesab edirəm ki, onun bu gün burada olmaması həm də burada olmaqdan qorxması ilə izah olunur. Mən güman etmirəm ki, o, özü üçün daxili təhlil etməmiş və öz hərəkətlərindən nəticə çıxarmamışdır.

Lakin bununla yanaşı, düzünü demək istəyirəm ki, mən yoldaş Vəzirovun vəkili olmaq fikrində deyiləm, eləcə də gələcəkdə özüm üçün və ya burada olanların heç biri üçün vəkil rolunda çıxış etməyə hazırlaşmıram. Kollektivin öz fikrini, düşüncəsini bildirməyə həmişə haqqı vardır. Ona görə də məni düz başa düşün. Bizim partiya təşkilatımızın, Mərkəzi Komitənin tarixində son vaxtlar olduqca çox dramatik səhifələr vardır. Burada çıxış edənlərin dediyi kimi, bu tarixi oxuyacaqlar, həm də ona görə yox ki, görsünlər Azərbaycan KP MK Vəzirovu bütün günahlarda təqsirləndirib, yaxud nəyisə gizlədib. Xeyr. O tarixi son vaxtlar regionda yaranmış millətlərarası münasibətlər kontekstində oxuyacaqlar. Bu münasibətlərin bütün qurbanları, demək lazımdır ki, yoldaş Bağırov da, yoldaş Vəzirov da, bir çox başqaları da millətlərarası əsasda baş vermiş hadisələrin müəyyən dərəcədə qurbanlarıdır. Gəlin, bununla razılaşaq. Bəlkə, Allah eləməsin, elə mən də, mənim digər yoldaşlarım da bu münasibətlərin qurbanları ola bilərik. Bizim bələ nə ola biləcəyindən xəbərimiz yoxdur. Gəlin daha yaxşı olacağına ümid bəsləyək. Bax, bu tarixin səhifələrini oxuyarkən və burada danışılanların hamısına yekun vurarkən belə bir təsəvvür yarana bilər ki, bəli, görünür, Azərbaycan əsas müqəssirdir və bir çoxlarının partiya cəzaları alması faktları buna dəlalət edir. Bu sənədlər heç bir düzəlişsiz, şərhsiz hər yerdə və həmişə müzakirə. obyekti olacaqdır. Bundan çıxış edərək, biz yoldaş Vəzirova heç bir reverans etməyərək, əksinə, onu pisləyərək qərar qəbul etməliyik. Hamımız bilirdik ki, onun partiya, komsomol işində insanlarla işdə böyük stajı var idi və onu məhz belə qəbul edirdilər. O uzaq dövrdə mən onunla işləmişəm, o, yaşca məndən böyükdür. Amma eşitmişdim ki, o, savadlı, inkişaf etmiş, necə deyərlər, genişmiqyaslı adamdır. Düşünürdüm ki, onun burada da, mərkəzdə də kifayət qədər geniş ünsiyyət dairəsi vardır. Bizə isə elə adam lazımdır ki, xalqın səsini mərkəzə çatdıra bilsin, deyək ki, hər hansı bir rəhbərin, o cümlədən baş katibin yanına gedib deyə bilsin ki, Azərbaycan xalqını təhqir etmək bəsdir. Biz bilirik ki, Azərbaycan partiya təşkilatı öz tarixi boyu həmişə mərkəzə çıxa bilmişdir (Mircəfər

Bağırovu da, başqalarını da yada salaq). Mən şəxsən belə düşünürdüm ki, yoldaş Vəzirov Azərbaycan xalqının ağrı-acısını öz komsomol yoldaşlarına çatdıra bilər. Təəssüf ki, o, bunu edə bilmədi. Bax, elə buna görə də o, məzəmmətə layiqdir. Bundan əlavə, o çoxlu səhvlərə yol verdi, heç kimlə məsləhətləşmədi. Mən bu barədə açıq deyirəm, hamı da burada bunu deyir.

Bir incəliyi sizin yadınıza salmaq istəyirəm. İstərdim ki, bu sizin nəzər-diqqətinizdən kənarda qalmasın. Biz bu gün Dağlıq Qarabağda 28 noyabr 1989-cu il tarixli sənədə əsasən işləyirik. Bu sənəd hər halda Vəzirovun səyi ilə qəbul olunmuşdur. Əgər o, XİK və bütün sonrakı qərarlarla bağlı fürsəti əldən verdisə də, hamımızın düşdüyü əzab-əziyyətdən keçərək ayıldı və bu məsələ ilə fəal məşğul olmağa başladı. Biz hamımız bunun şahidiyik. Obyektiv olmaq istəyiriksə, bu məsələni nəzərə almamaq olmaz. Məncə, bu hər balda müəyyən dərəcədə bəraət qazandırır. Siz necə bilirsiz?

Zaldan səslər: Düzdür!

**Mütəllibov A. N:** – Buna görə də gəlin məsələni səsverməyə qoyaq. Birinci təklif — çıxarılsın, ikinci təklif – ona partiya cəzası verilsin və MK-nın tərkibindən xaric edilsin. Təkliflərə verilmə ardıcıllığı ilə baxaq.

**Polyaniçko V. P:** Tərkibdən xaric edilmə gizli səsvermə ilə olmalıdır. Partiyadan çıxarılırsa, tərkibdən xaric edilmə mexaniki olur.

**Həsənov Ç. K. – Azərbaycan KP MK üzvlüyünə namizəd, pensiyaçı.**

- Mən 46 ildir ki, partiya sıralarındayam. Bu müddət ərzində partiyamıza xidmət etməyə çalışmışam. Bu gün biz öz əməlləri ilə çox bəlalara səbəb olmuş respublika partiya təşkilatının liderlərindən birini müzakirə edirik. Azərbaycan xalqı onu heç vaxt bağışlamayacaq. Arayışda bəzi nahamarlığın olması komissiyanın nöqsanıdır. Onların gözündən yayına bilərdi. Lakin əsas bu məsələyə siyasi qiymət və Vəzirovun kobud desək bütövlükdə partiyanın Mərkəzi Komitəsinə qiymət verməkdir.

Buna görə də plenumda bu məsələ müzakirə olunanda düzgün olaraq məsələ qaldırıldı ki, büronun hər bir üzvü MK üzvləri qarşısında çıxış etsin və münasibətini, habelə Azərbaycan xalqı qarşısında nə dərəcədə günahkar olduğunu bildirsin. Mart (1990-cı il) plenumunda və bu gün açıq etiraf edilsə də mən hesab edirəm ki, bu irəliyə doğru addımdır. Bizim üçün partiyamızın şərəfi, onun mövcudluğu daha əzizdir. Əgər biz Vəzirovun fəaliyyətinə düzgün qiymət verməsək, xalq bizi düzgün başa düşməz və deyər ki, MK plenumu özgə sözü ilə oturub-durdu və məsələni yumşaltdı. Vəzirov partiya MK plenumunun tərkibindən xaric edilməlidir. Partiyada isə, mən hesab edirəm onu saxlamaq olar, lakin uçot vərəqəsinə yazılmaqla ciddi töhmət elan olunması şərti ilə.

**Mütəllibov A.N:**

- Gəlin onda bu son təklifi müzakirə edək.

Uçot vərəqinə yazılmaqla ciddi töhmət elan olunsun və gizli səsvermə yolu ilə Azərbaycan KP MK plenumunun tərkibindən xaric edilsin.

Söz V. P. Polyaniçkaya verilir

**Polyaniçko V.P:**

- Əziz yoldaşlar, töhmət və başqa cəzalar məsələsinə əlqaldırma yolu ilə açıq səs veririk, MK-nın tərkibindən xaric edilmə gizli səsvermə yolu ilə olur. Buna görə də biz əmin olmalıyıq ki, plenumun əhval-ruhiyyəsindən nə dərəcədə xəbərdarıq. Təklif var: Hesablama komissiyasına aşağıdakı yoldaşlar seçilsin: Asanov, Qrinko, Məmmədov, Mahmudov, Mustafayev, Nikitin, Rahimov. Etiraz yoxdur? Bu hesablama komissiyasının üzvləridir. Etiraz yoxdur? Yox. Kim bu təkliflə razıdır, xahiş edirəm səs versin. Bir səslə.

**Mütəllibov A. N:**

- Gəlin birinci təklifə səs verək. Kim Vəzirov yoldaşa uçot vərəqəsinə yazılmaqla ciddi töhmət verilməsinin lehinədir? Xahiş edirəm səs verəsiniz. Kim narazıdır? Kim bitərəfdir? Bir səslə qəbul olunur.

Yoldaşlar, biz fikir mübadiləsi etdik və yoldaş Vəzirovun plenumun tərkibindən xaric edilməsi haqqında təklifin gizli səsverməyə qoyulması qərarına gəldik. Bu məsələni necə həll etmək plenumun səlahiyyətinə daxilidir.

Fasilə elan olunur.

Fasilədən sonra Mütəllibov A. N. Sədrlik edir.

**Mütəllibov A. N:**

- Söz hesablama komissiyasının sədri yoldaş D. M. Asanova verilir.

**Asanov D. M.** (hesablama komissiyasının 2 nömrəli protokolunu oxuyur).

**Mütəllibov A. N:**

- Təklif var hesablama komissiyasının 2 nömrəli protokolu təsdiq olunsun.

Xahiş edirəm səs verəsiniz. Kim əleyhinədir? Kim bitərəfdir? Bir səslə. Beləliklə Ə.X.Vəzirovun şəxsi məsələsi üzrə hesablama komissiyasının 2 nömrəli protokolu təsdiq olunur.

Qərar qəbul edildi.